# Cənubdan məktub

**Şəhid Səmir Qintarın həyat hekayəsi**

**Müəllif: İzzətullah Əlvənd**

# İqbal

Sənə kuklasını taxçanın üstünə qoyub dedi: -Bazara aparmaq istəyirəm.

Səmir güldü: - Onun üçün nə alacaqsan?

Sənə pəncərəyə tərəf getdi, uzaqlara baxdı. Ucsuz-bucaqsız bir düzənlikdə böyük şəhər görünürdü. Əbyə kəndi salınmış təpənin ətəyində qovaq ağacları ucalmışdı. Əbyə, şəhəri qoruyan gözətçi qalasına bənzəyirdi.

Sənə kuklasının üzünü şəhərə tərəf tutub dedi: - Ona cehiz almaq istəyirəm, gəlin köçürmək istəyirəm.

Səmir dedi: - Gəlin olsa, onunla vidalaşmalı olacaqsan.

Sənanın gözləri yaşla doldu: - Əvəzində şəhərə gedər. Mən də bəzi vaxtlar gedərəm evinə.

Səmir dedi: - Bəlkə gedə bilmədin!

Sənə qəzəbləndi: - Sən yaxşı bilirsən ya mən? Sən hələ balacasan.

Səmir başını aşağı saldı və gözünü bacısının şəhərə baxan kuklasına dikdi.

Soruşdu: - Mən də İqbalı qucağıma ala bilərəm?

Kuklanı bacısından alıb, ağuşuna çəkdi. Sənə anasını xatırladı. Kuklasının adını anasının xatirəsinə İqbal qoymuşdu. Səmir dünyaya gələndə İqbal Bəlut dünyasını dəyişmişdi. İndi o, ögey anası ilə yaşayırdı. Ata səfərə getmişdi; uzun bir səfərə. Uşaqlar və ana, atanın uzun səfərlərinə öyrəşmişdilər. Bir dəfə Fars körfəzi ölkələrinə, gələn ay Şotlandiyaya, o biri ay Allah bilir hara.

Səmir kuklanı bacısına qaytardı: - Kaş, atam mənə tank gətirəydi, böyük bir tank; onunla müharibəyə gedirdim.

Sənə dedi: - Mən müharibəni xoşlamıram.

Səmir xəyali tankı əlinin içində yerindən tərpətdi, nişan aldıqdan sonra atəş açdı: Duuuf.... duuuf.... duuuf...

Səna dedi: - Bəsdir, xoşlamıram.

Səmir dedi: - Cənab Vədi Həmzə deyir ki, onlar bizim həyatımızı məhv edirlər... Deyir ki, onlar azadlığımızı əlimizdən alıblar... Deyir, onlar olmasaydılar, biz xoşbəxt idik.

Səna dedi: - Bəli, düz deyirsən. Onlar çox cinayətkardırlar. Mənim hələ də yadımdadır, çoxlu şəhərləri bombaladılar.

Səmir yenidən xəyali tankını şəhərə tərəf tutub qışqırdı: - Sizi məhv edəcəyəm, inkir-münkir ordusu!

Sənanı gülmək tutdu:

- Bunu kimdən eşitmisən?

Səmir iki əlini birləşdirdi, sonra birini tapança, o birisini isə tapançasına dayaq etdi, bir az sonra müəlliminin səsini yamsıladı və uzaqlara atəş açdı:

- Səmir Qintar, sən və qalan uşaqlar da bilin ki, israillilər inkir-münkir ordusudur.

Səna qardaşını qucaqladı. Gedib pəncərənin yanında oturdu. Pəncərədən kiçik həyətdə su ilə dolu ləyəndə paltar yuyan ananı gördü. Yenə həmin səsi yamsıladı: - Səmir Qintar, anaya kömək etməliyik.

Bunu deyib həyətə qaçdı. Səmir də bacısının ardınca qaçdı. O da, Səmir və bacısından başqa daha altı uşağın anası olan ögey anasına kömək etmək istəyirdi.

Səmir həsrətlə dedi: - Kaş, atam evə tez gələydi!

Təyyarənin uğultu səsi eşidildi. Ana və Səna göyə baxdılar. Səmir qaçaraq özünü ögey anasına və bacısına çatdırdı. Ana onu da, bacısını da ağuşuna çəkdi.

Səmirin beş-altı yaşı olduğu illər yadına düşdü. İki-üç il bundan əvvəl təpənin üzərində tikilmiş evdən bütün şəhər

görünürdü. Təyyarənin uğultu səsi, bomba partlaması, şəhərdəki pərakəndə yanğınlar xatirəsindən heç vaxt silinməyən dəhşətli görüntülər idi.

Cənab Vədi Həmzə demişdi: - Biz ərəblər əhdimizi sındıran adamlarıq. Bir-birimizə arxa dayanmırıq. Ortaq düşmənimizin varlığını unuduruq. Birgə ola biləcəyimizi yaddan çıxarırıq. Yadımızdan çıxır ki, əl-ələ verib Livan və Fələstinin ittifaqını yarada bilərik.

Səmir Həmzənin dediklərini düşünürdü. Onun qəzəb və həyəcandan qızarmış üzü gözünün qarşısına gəlirdi. Səmir ondan soruşmuşdu: - Cənab, necə ittifaq yarada bilərik?

Həmzə demişdi: - Təkcə bunu edin ki, böyüklərlə birlikdə yürüşə çıxın. Sıralarınız nə qədər uzun olsa, ittifaq bağlarımız daha möhkəm olacaq.

Soruşmuşdu: - İttifaq bağı nə deməkdir?

Özünün də Fələstin Xalq Cəbhəsinin üzvü olduğunu deyən müəllim, bunu belə izah etmişdi: - Yürüşdə iştirak etsəniz, bütün dünyanın insanları sizin səsinizi eşidəcək.

Səmir təyyarədən buraxılan bombalardan heç birinin onun evinə və Əybə kəndinə düşməsini istəmirdi. Kəndi sevirdi. Təpənin yamacında tikilmiş evləri sevirdi. Kəndin ibadətgahını sevirdi. Bəzi günlər ana, bacıları və qardaşları ilə dua etmək üçün oraya gedirdi. O, ittifaq zəncirində pay sahibi olmağa çalışırdı.

Təyyarənin səsi uzaqlaşdı, lap uzaqlaşdı. Kimsə qapını döyürdü. Səmir özünü ananın qucağından ayırıb, qapıya sarı qaçdı. 14-15 yaşlı yeniyetmə qapının ağzında dayanmışdı. Səmir ona baxdı.

Oğlan dedi: - Milad bayramınız mübarək! Yeni il təqvimi istəmirsiz? Pulu Azadlıq Ordusuna xərclənəcək.

Sanki, evdəkilərə izah etmək istədiyi bir tərzdə deyirdi.

Ana qapıya sarı gəldi. Belinə bağladığı uzun parçanın arasından bir sikkə çıxarıb Səmirə verdi. Səmir onu yeniyetməyə verib təqvimi aldı.

İndi o, xəyali tankla böyük bacısının kuklası ilə oynamaq əvəzinə təqvimin şəkillərinə baxa biləcək, onun qısa cümlələrini oxuyacaqdı; Beyrut və Aralıq dənizinin sahillərindən çəkilmiş şəkillər; finikiyalıların rəsmləri; qədim dövrlərdə Livanda sakin olmuş tayfalar; Beyrutun eramızdan 500 il əvvəl adını qeyd etmiş Amarna daş kitabələri; Bizans İmperiyasına, Selevkilərə, Romalılara aid yazılar, səlib yürüşləri və s.

Təqvimdəki şəkillərə və yazılara elə başı qarışmışdı ki, atasının səfərdən qayıtmasından xəbər tutmadı. Səhər yuxudan oyananda yatağının yanında zeytuna çalar yaşıl rəngdə kiçik bir tank gördü.

# Nar bulağı (Eynur-Rummanə)

Nail cəld kitabı Səmirin əlindən aldı. Bu nədir oxuyursan?

Səmir dedi:

- Tarixi çox sevirəm.

Nail dedi:

- Bunlar hamısı boş şeylərdir, Səmir Qintar! Tarix, içində yaşadığındır. Bunların çoxu yalandır.

Səmir təəccüblə ona baxdı. Sanki, deməyə çox sözü var idi. İndi qığılcımı Səmirin kitabxanadan aldığı o kitab idi.

Nail dedi: - Axşamüstü gedək qəhvəxanaya?

Səmir dodaqlarını sordu, bir az ara verdikdən sonra dedi: - Pis deyil. Televizoru da var. Çoxlu əylənə bilərik. Saat neçədə?

Axşamüstü tez gəlib çatdı. Nail özü ilə bir dəstə kağız gətirmişdi. Səmir onların bəyannamə olduğunu başa düşdü; camaatı fəryad etməyə çağıran elanlar.

Nail dedi: - Bax... Bizim vicdanımız var və məsuliyyət daşıyırıq. Düzdür, biz druziyik, ancaq bizim müsəlman həmvətənlərimizi öldürürlər. Qondarma iğtişaşlar yaradıblar və bundan istifadə edib müsəlmanları öldürürlər. Maruni qruplarını və tayfalarının davasından müsəlmanlara nə dəxli var?

Səmir Nailin ağzına baxırdı. Bilmirdi ki, bu sözlərə inansın, ya yox.

Soruşdu: - Necə bilirlər? Yaxşı, mən və sən druziyik. Bəs müsəlmanları necə tanıyırlar? Onlar da bizim kimidirlər; görünüşü, geyimi, hər şey...

Nail dedi: - Hər kimin şəxsiyyət vəsiqəsində müsəlman yazılıbsa, onu öldürürlər. Canıma and olsun, biz nə isə etməliyik. Təbii ki, hələ də silahlı döyüşə qarşıyam.

Səmir sual soruşmaq istəyirmiş kimi dostunun ağzına baxırdı.

Nail davam etdi: - Yeni il başlayandan vəziyyət daha pisləşir. Şubat[1] ayında Eynur-Rummanədə Mustafa Səd öldürülündən bəri vətəndaş müharibəsi başlayıb.

Səmir dedi: - Bəs niyə bizim xəbərimiz yoxdur?

Nail dedi: - Çünki xəbərləri bizdən gizlədirlər, oğlan! İndi 1975-dir və bizim də 13 yaşımız var. Ölkəmizin taleyində təsirli ola bilməsək, heç bir dərdə dəymirik.

Səmir dedi: - Eynur-Rummanədə nə baş verdiyini deyə bilərsən?

Nail stolun üzərindəki kağızların arasından bir vərəq tapıb, Səmirə tərəf uzatdı: - Al, oğlan! Oxu, ibrət al!

---

[1]. Fevral.

Səmir gözlərini yazılmış sözlərə dikdi:

“Qızğın döyüş gedirdi. Hər iki tərəfdən güllə yağışı yağırdı. DŞK-nın ağır və melodik səsi döyüşə xüsusi heybət bəxş edirdi.

Briqadanın döyüşçüləri Eynur-Rummanədəki yüksəklikdə silahlı və yaxşı təchiz olunmuş mövqelərdə yerləşərək atəş açırdılar, Şiyahdakı hər canlını ovlayırdılar.

Müsəlman döyüşçülər isə divarların və qum kisələrinin arxasında, gizli yerlərdə mövqe tutmuşdular. Təşəbbüs briqadaların əlində idi və müsəlmanlar təkcə müdafiə mövqeyi tutmuşdular. Bəzən də meydan boş qalmasın deyə, barmaqlarını avtomatın tətiyinə sıxır, heç bir dəqiq hədəf olmadan Eynur-Rummanə səmtinə güllə yağdırırdılar.

Şiyah boyu bizim üç müdafiə mərkəzimiz var idi. Onlardan ən təhlükəlisi “Əsəd Əsəd” küçəsinin yaxınlığında idi. Adət üzrə hərəkat cəngavərlərinə baş çəkmək və təskinlik vermək üçün hər gün bu mərkəzə gedir, gənc döyüşçülərlə görüşürdüm. Onlarla oturub çay içirdim və səngərlərini yoxlayırdım.

Bu küçənin qırağında hündür bir divarın yanında dayanmışdım və gizlincə divarın yanından Eynur-Rummanəyə baxır, düşmənin mövqelərini nəzərdən keçirirdim.

Küçə xəlvət idi. Quş da uçmurdu. Hətta, güllələrin də səsi kəsilmişdi. Ölümdən qorxulu bir sükut çökmüşdü... Mən heyranlıq, qorxu və məyusluq aləmində idim...

Küçənin o biri tərəfində, 10 metr uzaqda evlərin birində iki-üç yaşlı bir uşaq oynayırdı. Evin qapısı açıq idi və uşaq birdən küçənin ortasına qaçdı...

Özümdən asılı olmayaraq, o vaxta kimi özümdən bənzərini eşitmədiyim güclü və ildırıma oxşar bir qışqırıq sinəmin dərinliyindən qopub göyə ucaldı...

Bilmirəm, nə dedim, hansı hala düşdüm, qışqırığımın partlayışı hansı vulkanı alovlandırdı; amma bu an həyəcan içində olan gənc bir qadın qışqırdı, saçları pərişan və ayaqyalın küçənin ortasına qaçdı... Hələ əli uşağa çatmamışdı ki, güllə səsi ucaldı. Güllə onun sevgi ilə dolu sinəsinə oturdu. Ana fırlanıb ağrılı qışqırıqla yerə yıxıldı. Bir əlini sinəsinə qoydu. Barmaqlarının arasından qan fəvvarə vururdu. O biri əlini uşağına tərəf uzatmışdı və deyirdi: - Ah... övladım! Ah... övladım!

İldırım sürətilə özümü küçənin ortasına çatdırdım. Cəld uşağı götürüb küçənin o biri tərəfinə, evin içinə apardım.

Evin içinə girdim. Uşaq əlimdə əl-ayaq çalırdı. Anaya tərəf baxdım. Onun əli hələ də övladına tərəf uzanmışdı və gözləri bizə baxırdı! Bizim sağ olduğumuza əmin olduqdan sonra dərdli bir ah çəkdi, başını yerə qoydu və əli yerə düşdü...

Uşağı evin bir küncünə qoyub, ananı xilas etmək üçün özümü təhlükəyə atmağa hazırlaşdım. Bütün bu hadisələr bir neçə saniyədən artıq çəkmədi. Ancaq o qədər dəhşətli və kədərli idi ki, iliyimə qədər yandırdı.

Uşaq özünü anasının qucağına atdı. Ana bir ah çəkib, balasını dəlinmiş sinəsinə çəkdi. Uşaq ağlayırdı. Ananın gözündən bir damla yaş süzülmüşdü. Bu, sevinc göz yaşı idi; övladının xilas olması üçün şükür göz yaşı idi. Ananın əli yavaş-yavaş boşaldı, yorğun gözləri bir küncdə dayandı.

Bəli, ana can vermişdi və uşaq hələ ağlayırdı!

Mən ayrı aləmdə idim. İnsanlardan uzaq, səs-küydən uzaq, döyüşdən uzaq, bu uşağa baxırdım."

Səmir soruşdu: - Bunu kim yazıb?

Nail dedi: - Həmin müsəlman mübarizlərdən biri. Nə bilim. Bu, o qədər də vacib deyil. Vacib olan ölkəmizdə nə baş verdiyini bilməyimizdir.

Səmir ətrafa nəzər saldı və həyəcanla soruşdu: - Ərdinc paşa bizi qəhvəxanadan qovmağa gəlir?

Nail dedi: - İnanmıram. Bizim 13 yaşımız olsa da, Ərdinc paşa elə bilir gəncik. Üstəlik, biz burada türk qəhvəsi içməkdən başqa bir şey etmirik. Bu ki, qanun pozuntusu deyil.

Vərəqin arxasında iki sətrdə nizamsız şəkildə yazmışdı: “Daxili müharibə bizim diqqətimizi fələstinlilərin başına gələn bəlalardan yayındırıb. Bir az sonra, növbə Livana çatacaq.”

Səmirin baxışlarını görən Nail başını tərpədib dedi: - Bəli. Buna inanmalıyıq. Gec-tez bizim də başımıza gələcək.

# Punçu sahili

Nail addımlarını itiləndirdi. Addımlarının izi sahil qumları üzərində qalmışdı, çökmüş qumlar sarı işıqda səhra qumlarının alçaq-hündür formalarına oxşayırdı. Əlini Səmirin çiyninə vurub dedi:

- Əvvəldən elə öz işinin ardınca idin. Ancaq öz sözünü yeritmək istəyirsən. Mən sənə dedim axı, silahlı döyüşü qəbul etmirəm, sən isə iki ayağını bir başmağa dirəmisən.

Səmir dedi: - İnadkarlıq ya tərslikdən söhbət getmir. Mən xalq cəbhəsinə qoşulmuşam, yəni böyümüşəm, yəni özüm üçün qərar verə bilərəm, yəni ölkəmin taleyini özüm həll edə bilərəm.

Nail gülümsədi:
- Hamı belə şüarlar verir.
Səmir:
- Bu dediklərim şüar deyil.
Nail sözünə davam etdi:
- Sənin cəmi 14 yaşın var. Bir düşün. İndi sən evdə olmalısan, atana kömək etməlisən, bacını, ananı qorumalısan, dərs oxumalısan... aşiq olmalısan.
Səmir nadinc bir təbəssümlə dedi:
- Bəs, dəniz ona görə çox qəşəng olub.
Nail Səmirin zarafatını qulaqardına vurdu:
- Mən xoşlayıram ki, görəcəyim iş təbliğat işi olsun, qəzetdə, jurnalda, ya kitabda yazam.
Səmir dostu ilə razılaşa bilməyəcəyini və bunun çətin olduğunu düşündü. Hər şeydən çətin isə öz fikrini sıxışdırmaq idi. Ona görə də inadkarlıq hiss etdi. İnadkar idi, öz ətrafında gördüklərinin hamısından inadkar. İnadkarlıqda atasına oxşadığını düşünürdü. Çünki atası iş tapmaq, evə bir tikə çörək gətirmək üçün yalnız işləyirdi və işləyirdi. Bəhreynə qədər çoxlu səfərlərə getmişdi, hətta Birləşmiş Ərəb Əmirliklərini, Küveyti qarış-qarış gəzmişdi ki, gəmidə işləsin, evin xərcini çıxarsın. İndi atasının evdə olmamasına görə, məsuliyyət hiss edirdi, bir tərəfdən də artq böyüdüyünü düşünürdü. Həyat onu çox böyütmüşdü, inadkarlığı yaşını artırmışdı.
Dostu Nail üçün fələstinli partizanların təlim düşərgəsindən danışdı; onun üçün çox çətin keçən təlimin ilk günlərindən. Dedi ki, ata-anadan ayrılmaq, qəriblik, tənhalıq hiss etmək çox dözülməz olub.
Təlimdə sərtliklərdən, düşərgədə çəkdiyi aclıqdan, susuzluqdan danışdı. Halbuki, o, elə adamların arasında olmuşdu ki, onlar bir-birlərinə çox yaxın idilər və ailənin

yerini onun üçün doldura, əzabverici uzaqlığı və qəribliyi onun üçün şad bir topluma çevirə, hər gün istirahət vaxtlarında gülməli xatirələri ilə tənhalıq əzabını azalda bilərdilər.

Nailə dedi ki, indi silah onun üçün əbədi həmdəm olub. Şövqlə dostuna kalaşnikov, snayper, minaatan, əl qumbarası, pulemyot-tapançalardan danışırdı. Silahı qucaqlamaq şövqü onun üçün heyrətləndirici idi. Nail isə bu işə görə onu məzəmmət edirdi. O, inanırdı ki, sülh dünyanı xilas edir, müharibə isə məhv edir.

Səmir sübut etməyə çalışırdı ki, sülh müharibədən daha pisdir və deyirdi: - Misir prezidentinin ərəblərə və İsrailə sülh təklifindən sonra hər şey qarışdı. Çoxları bu sülh planını qəbul etməmişdi.

Qəzetlərdə çap olunan xəbərlər təkcə müharibə haqqında idi; bomba partlayışları, nümayişlər, falanqaçı marunilərin suriyalı qüvvələrə qarşı daxili müharibəsi.

Nail dedi: - Sənin qəzet və siyasətdən danışdığın qədər heç kim danışmır. Sən bu boy-buxununla siyasət işinə yaramırsan.

Səmir dostunun sözündən narahat olmadı. Lakin döyüşə məşğul olan fələstinli qruplar haqqında danışmaq, hərəkatlar haqqında ona bir-bir izah vermək istəyirdi, amma Nailin onun sözlərindən çox tez yorulacağını düşündü.

Təəccüblənirdi ki, Nailin onda yaratdığı o şövq və coşqunluq niyə birdən-birə yoxa çıxıb? Bu, müxtəlif qrupların bəyanatlarını onun üçün oxuyan Naildir? Başına nə bəla gəlib?

Yadına onun bir az əvvəl dediyi bir neçə cümlə düşdü. Ürəyində öz kəşfini alqışlayıb dedi: Aha... aşiq olub!

Gözaltı ona baxıb dedi: - Səncə, Şibli əminin qozlu dondurmasından yenə var?

Sahili küçəyə birləşdirən daş pilləkanlarla yuxarı qalxdılar. Sol tərəfdə kiçik bir dondurma dükanı var idi.

Deyib-gülüb iki ədəd qozlu dondurma aldılar və sahildə qoyulmuş oturacaqlara tərəf getdilər. Ora axşamüstü dondurma yemək üçün çox ləzzətli yer idi.

Səmir fikrə getdi; bu, həmin günəşdir ki, Əbyənin təpələrindən bacısı Səna ilə ona baxarkən dənizin uzaqlıqlarında batırdı.

İndi günəş çox yaxınlaşmışdı və dalğa üzərindəki işığın əksi rənglərin rəqsinə bənzəyirdi; isti rənglər, kətan üzərində bir rəsm.

Nail dedi:

- Mənim sülhə həris olduğum qədər, sən həris olsaydın, indi dünyanı sülh fəth etmişdi.

Səmir dondurmasını dişlədi. Sonra laqeydliklə günəşin batmasına tamaşa edə-edə dedi:

- Bu sülh yüz müharibədən pisdir. Əgər yaxşı olsaydı, İmam Musa Sədr Rəsul-bənna məscidinin qarşısında ona etiraz olaraq aclıq aksiyası keçirməzdi. Biz bu cərəyanla birgə olmalıyıq.

Nail gözlərini günəşin başı üzərində çadır qurmuş buludlara zillədi. Dostu ilə müzakirədə məğlub olmaq istəmirdi. Lakin fikrinə gəldi ki, Səmir daha qərarını verib və mən qətiyyən, onu fikrindən döndərə bilmərəm. Misir prezidentinin Suriya prezidentini sülh təklifi ilə bağlı razı sala bilmədiyi kimi.

Səmir daha maraqlı sözlər danışmaq, təlim xatirələrindən, dağ, meşə və şəhərdə döyüş qaydalarını öyrənməyindən söz açmaq istəyirdi. Yuxusunun yüngül olmasını, səhər alaqaranlıqdan yuxudan qalxdığını demək

istəyirdi. Qaçışdan, başdan-ayağadək tərin suyun içində olmasından danışmaq istəyirdi. Nail isə iki ayağını bir başmağa dirəyib Livanın da başqa ərəb ölkələri kimi sülhlə razılaşmalı olduğunu, əks halda daxili müharibələrin onu viran qoyacağını deyirdi.

Sahildəki çıraqlar yandırılmışdı, Səmirin ağlında formalaşan sual kimi. Dostu Nailin və ailəsinin Beyruta gəlməsinin cəmi iki-üç il olduğunu bilsə də, ondan əvvəlki illər haqda soruşmaq istəyirdi. Başını aşağı salıb dedi:

- Elanlarda birlikdə oxuduğumuz sözlər yadına gəlir? O sözlər çox şeyləri aydınlaşdırır. Çünki bizim kimi çoxlu adamlar müharibəyə cəlb olunmayıb. Onlar heç vaxt şəhərlərinin bombalandığını görməyiblər, uşaq ikən bombaların qorxusundan titrəməyiblər, şalvarlarını islatmayıblar, düşərgələrə qaçqın düşməyiblər. Elə bilirsən, bizi və xalqımızı bu cür köçkün salanlar bağışlanmağa layiqdir? Fikrimcə, sən iki il bundan əvvəl başqa şəhərdə yaşadığın üçün rahatlığın nə olduğunu bilirsən. Səncə, Beyrutda baş verən bu hadisələrlə, yaşadığın o rahatlığın izi burada görünür?

Nailin deməyə sözü yox idi, bəlkə də susmağa üstünlük vermək, qürub və ondan sonra gələn qaranlığın gözəlliyinə tamaşa etmək istəyirdi. Artıq başa düşmüşdü ki, Səmir qərarını verib və mübarizlərə qoşulmaq istəyir, əlinə silah almaq, düşmənlə döyüşmək istəyir. Bu, yazmaq ilə dünyanı xilas etmək istəyən Nailin fikirləri ilə zidd idi.

# Cənubdan məktub

Səmimi dostum, əziz Nail!

Sənin üçün çox darıxıram.

Bir yerdə olduğumuz vaxtdan bir il keçir. Punçu sahilində qozlu dondurma yediyimiz axşamı deyirəm. O vaxtdan çox keçib. İndi mən çox təcrübələr qazanmışam. Bəlkə də o təcrübələrdən biri bu məktubu sənə yazmağıma, onu səninlə bölüşməyimə bais olub. Doğrusu, həmvətənlərimlə döyüşməkdən yorulmuşam. Mənə elə gəlir ki, daxili müharibələr bizi yorub. Bunlar faydasız və qardaş qırğınına gətirib çıxaran kor müharibələrdir. Bu müharibələrin kökü İsraildir. Onlar bu müharibəni livanlıların canına salıblar. O kökü qurutmalıyıq. Mən daha öz həmvətənlərimlə döyüşə bilmirəm. Ona görə də, mübarizə yolumu və məqsədimi əsas düşmən olan İsrailə tərəf yönəltdim. Mən Tələt Yəqub qüvvələrinə qoşuldum ki, bu yol ilə əsas məqsədimə çatım. Doğrusu, ailəmizdə hamı atam kimi düşünərək mənim işimin səhv olduğunu, ailədən uzaq olmağın mənim üçün çox təhlükəli olduğunu desələr də, mən bu fikirlə barışa bilmədim. Atam mənimlə çox söhbət etdi, səndən də çox. Mən öz seçdiyim yolu davam etmək qərarına gəldim. Hətta Qəmatiyyə əməliyyatında yaralandıqda da, atam məni istirahət üçün səfərə göndərmək istədi, mən isə qəbul etmədim və yenə cəbhəyə qayıtdım. Atamın narazılıqları hələ də davam edir.

Bu məktubu Livanın cənubundan sənə yazıram.

Doğrusu, bunu da deyim ki, hamısı zabitlərdən ibarət olan Xalq Cəbhəsi Mütəxəssisləri Qrupuna qoşulmaq barədə xahiş etmişdim. Mənim xahişimi qəbul ediblər. Bu qrupa qoşulmaq üçün çox səy göstərdim. Məsul zabitlər

mənim qovluğumu araşdırıblar, işləri kəşfiyyat olan fələstinli qrupların bir sıra xüsusi əməliyyatlarında iştirak etməyim barədə qərar veriblər. İsrailli casusların ovuna çıxmaq istəyirik.

Bilirəm, əgər Rabat komitəsindəki komandanlıq kursu haqqında sənə yazsam, yorulacaqsan, bu sözlərə hövsələn çatmaz. Çünki silah, bomba, mina, minaların döşənməsi kimi işlərdən xoşun gəlmir. Amma bunu deyim ki, təlim kursu bitdikdən sonra əməliyyatların birində komanda başçısı ola bildim və bu əməliyyata çox yaxşı şəkildə rəhbərlik etdim.

Özündən danış. Necəsən? Nə iş görürsən? Dərslərini hara çatdırmısan?

Sahilə tərəf getsən, Şibli əmiyə bir baş çək. Bir dondurma özün üçün, bir dondurma da mənim əvəzimdən ye.

Temmuz[1] 1977
Sənin dostun: Səmir

---

[1]. İyul.

# Ərbət həbsxanası

Səmir əldən düşmüş, inləyən halda bir yamacda buraxılmışdı. Aşağı yıxılmamağa çalışırdı. Vəziyyəti bir neçə saat bundan əvvəlki ilə müqayisədə bir az yaxşılaşmış kimi görünürdü. Özünə gələndə başa düşdü ki, nə qum təpəsi üzərindədir, nə də aydın və mavi səma altında; bağlı zindan divarları arasındadır.

Müstəntiqlər əl çəkmirdilər. Fasilə vermədən onu sərhəddə baş verən hadisə haqqında sorğu-suala tuturdular. Saxlanılmasından bir neçə ay ötmüşdü, hər gün şallaq və işgəncə payı var idi. Bütün bunlar onun dilə gəlib, görüş vaxtını və yerini deyəcəyi ilə bitə bilərdi.

Öz yaşıdları olan iki-üç yeniyetmə ilə İordaniya ərazisinə girmək barədə qərar verildikdə, hər şeyin yaxşı gedəcəyini düşünürdü. Hər şey də yaxşı gedirdi. Səmir və yoldaşlarının qanuni və rəsmi sərhəddən İordaniya ərazisinə girməyi planlaşdırılmışdı. İsrail sərhədi yaxınlığında naməlum bir şəxsdən silah təhvil almalı idilər. Sonra bir çaydan keçərək əsas yola çıxmalı, Tiberiyada bir hərbi konvoya hücum edərək bir qrup israilli əsgəri girov götürməli, bundan sonra Suriya ərazisində girovlar qarşısında öz tələblərini irəli sürməli idilər, lakin Suriya radiosundan yayılan bir xəbər onların bütün planlarını alt-üst etdi.

Diktor qətiyyətlə və açıq-aydın şəkildə dedi ki, belə bir hadisə baş verəcəyi surətdə, Suriya hökuməti heç bir məsuliyyət qəbul etməyəcək. Ona görə də sərhəddən keçəndə hər üç nəfəri saxladılar. On beş yaşlı Səmir qrupun başçısı olmasına baxmayaraq, heç nə edə bilmədi. O, Xalq Cəbhəsinin komandanlarının birgə komitəsində

neçə ay ən çətin şəraitdə təlim görsə də, indi həbsxana divarları arasında idi. Nasirəddin Mənəyafa və Əbu Şadi də onunla birlikdə Ərbət sərhədində saxlanılmışdı. On yeddi gün idi ki, sərhəd yaxınlığında təcridxanada idilər və işgəncə edilirdilər, amma onlardan söz çıxmırdı. Çünki İordaniya sərhədində onlara silah verəcək şəxsin kim olduğunu bilmirdilər. Təbii ki, görüş vaxtını və məkanını bilirdilər. Ona görə də, səy edirdilər ki, görüş vaxtının çatmasına qədər dözüm göstərsinlər, sonra rahat nəfəs alsınlar.

On yeddi gündən sonra onları kəşfiyyatın Amman şəhərində yerləşən mərkəzi həbsxanasına göndərdilər. Səmirə yarımçıq xəbərlər çatırdı. Bu xəbərlərdən bəzisi onu ümidvar edir, bəzisi də üzürdü. Atası onu azad etmək üçün böyük addımlar atmışdı. Onun üçün pul və yemək də göndərirdi, hətta vəkil də tutmuşdu. Lakin pis xəbər bu idi ki, vəkil İordaniyanın kəşfiyyat qurumu ilə əlaqə yarada bilmirdi.

Səmir atasının sözlərini xatırlayırdı. Neçə dəfə ondan istəmişdi ki, inadkarlıqdan əl çəksin, xalq hərəkatından uzaqlaşsın. Demişdi: “Oğlum, niyə bu qədər özünü təhlükəyə atmağı sevirsən? Fələstin məsələsinin mən və sən livanlıya nə dəxli var? Biz öz ölkəmizdə yaxşı yaşayırıq. Nə üçün özünü siyasi oyunlara qoşmusan?...” Amma atasının sözləri Səmirin qulağına girmirdi. Dörd aydan sonra onu və dostlarını Məhat həbsxanasına göndərdilər. Digər mücahidlər də bu həbsxanada saxlanılırdı.

Səmir daha qorxmurdu. Həbsxananın qaranlığına və darlığına dözə biləcəyini başa düşmüşdü. Gələcəyi düşünürdü, daha böyük planlar haqda, hətta o böyük hadisəni unutmağa başlamışdı. Onun falanqaçı maruni

olması ilə bağlı özünə təsəlli verirdi. Öz-özünə deyirdi: - Əgər mən onu öldürməsəydim, o, məni öldürəcəkdi. Müharibə budur: əgər öldürməsən, öldürüləcəksən. Maruni gəncin siması gözünün qarşısına gəlirdi. Əlində silah onunla üz-üzə gəldikdə, Səmir cəld tərpənməsəydi, maruni onu və silahdaşını güllələyəcəkdi.

Müharibədən bu xatirələr yadında qalmışdı. Ən ağrılısı isə minaatanlar yağışından sonra baş verən hadisə idi. Toz-torpaq, atəş və tüstü yatdıqdan sonra bir kişini dizi üstə oturub heyrətlə uzaq üfüqlərə baxdığını gördü. Sol əli kəsilmiş və dəridən asılı qalmışdı. Səmir ona yaxınlaşdı, gözlərini bağladı və onun dəridən asılı qalmış əlini bədənindən ayırdı, huşsuz bədənini çiyninə alıb xəstəxanaya apardı.

İndi həbsxanada möcüzə gözləyirdi; bir mələk əlini uzadıb onu həbsxananın divarları arasından xilas etsin. Bu həbsxananın onun bütün taleyi olacağını bilmirdi; bu həbsxananın divarlarına, bağlı tavana, qəribə işıq verən pəncərəyə, həbsxana otağının azacıq havasına öyrəşməli olduğunu bilmirdi; getdiyi yolun onu dözülməz taleyə düçar edəcəyini bilmirdi.

Bir gün həbsxana yoldaşı ona Maksim Qorkinin "Ana" romanını verdi. Səmir bir neçə gün kitaba qərq olmuşdu; bütün varlığı ilə öz övladını Rusiya inqilabına fəda etmiş bir ananın hekayəsini düşünürdü. Fikirləşirdi ki, övlad ölümü ana üçün ağır hadisədir, lakin ideya yolunda bəlkə də bu iş asandır və hər vaxt, hər yerdə bu hadisə baş verə bilər. Anası İqbal Bəlutu, eləcə də göz açandan onu gördüyü və yalnız onu ana səslədiyi ögey anasını xatırladı.

Həbsxanada digər kitablar da əldən-ələ ötürülürdü, amma çoxu rus yazıçılarının kitabları idi.

Bir gecə çox qəribə yuxu gördü. Bu yuxu dəhşətli bir gələcək barədə həqiqətə işarə edirdi:

Aralıq dənizinin qorxulu dalğalarından keçmişdi. Təngnəfəs olmuşdu. Çatanda, bir divar gördü. Divarın arxasında qiyamət qopmuşdu... Sonra anlaşılmaz şeylər. Yuxudan ayılmışdı.

Bir gün səhər vaxtı onu, Nasirəddin Mənəyafanı və Əbu Şadini azad etdilər. Səmir dərindən nəfəs aldı. On bir ay məhbusluqdan sonra indi azadlıq hissi onun üçün qanad açıb uçmağı xatırladırdı. Əbu Şadi dedi:

- Dostlar, mən mübarizənin üzərindən xətt çəkdim. Mən öz işimə, həyatıma, dərsimə-məşqimə qayıtmaq istəyirəm. Ona görə də İordaniyada qalıram. Çünki öz ölkəmdir. Sizinlə Livana getmirəm.

Nasirəddin dedi:

- Mən səninlə Livana gedirəm. Bəlkə də, azad bir ölkədə yaşamaq gününü düşərgədə keçirməkdən yaxşıdır, ancaq mənim kimi fələstinlilər düşərgənin qəribliyində yaşamağa öyrəşiblər.

Gecə yarısı saat birə yaxın Səmir evə çatdı. Ailəsi və qardaşları onu qarşıladılar. Ana onu bərk qucaqladı. Atası dedi ki, Tunisdə onun üçün çox yaxşı təhsil təqaüdü düzəldib, çox asanlıqla başqa ölkəyə gedə bilər və arxayın təhsillə məşğul ola bilər.

Səmir başını aşağı saldı. Bu, onun ata-anasının səylərinə cavabının mənfi olduğu demək idi. Atası dedi: - İsrail təkcə fələstinlilər üçün təhlükəlidir. Bizə heç bir aidiyyatı yoxdur. Sən əbyəli, beyrutlu, livanlı bir uşaq...

Səmir başını yuxarı qaldırıb dedi: - Haqq sizinlədir, amma təəssüf ki, mən bunu edə bilmərəm. Mənə elə gəlir ki, bu əfi ilanın təhlükəsini mən livanlı dəf etməliyəm.

Ata bir saat söhbət etdi ki, onu qane etsin. Səmir isə sükut etdi. Beynində qəribə və həyəcanlı bir vəsvəsə var idi: Beyruta getmək və Takhanidə hərəkat üzvləri ilə görüşmək.

# Natamam məzuniyyət

Yaz fəsli gəlib çatmışdı. Müqavimət hərəkatına qoşulmaq Səmirin beynindən çıxmırdı. Xalq Cəbhəsinin hərbi komandiri Səmirin qətiyyətli gözlərinə baxıb soruşdu: - Məzuniyyəti natamam qoyub gəlməyinin səbəbi nədir?

Səmir dedi: - Mübarizə.

Əbul-Abbas bir əməliyyatın planını hazırlamışdı. Onun detallarını Səmirə izah edərək dedi:

- Biz sənin kəşfiyyat qabiliyyətinə inanırıq. Bu dəfə dəniz yolu ilə İsrailə hücum etmək istəyirik. Ona görə də sən dəniz təlimi görməlisən.

Səmir qəbul etmişdi. İndi onun on altı yaşı var idi, çətin və macəralarla dolu bir əməliyyat üçün həyəcan içində idi.

O görüşdə Səmirin əməliyyat yoldaşları təyin olundu. Macid ləqəbli Əbdülməcid Aslan, peşəkar pulemyotçu, 23 yaşlı; Əbu Əsəd ləqəbli Əhməd Əsəd Əbrəs, peşəkar pulemyotçu, 29 yaşlı; Məhəmmədəli ləqəbli Muhənna Səlim Muəyyid, anti-zireh raketlər üzrə mütəxəssis, qumbaraatançı, 20 yaşlı.

Səmir yaşda digər yoldaşlarından kiçik olsa da, Əbul-Abbas qrupa başçılığı ona tapşırdı. Onlar öz ideyalarını kağız üzərinə yazdılar, əllərini kağızın üzərinə qoydular və başlarını tərpətməklə axıra qədər birlikdə olacaqları ilə bağlı bir-birlərinə əminlik verdilər.

Səmir kağızı yuxarı qaldırdı və bir daha özü üçün oxudu:

1. Fələstin xalqı bilsin ki, müqavimət bitməyib və biz möhkəm, fədakarcasına onların azadlığı yolunda mübarizə aparacağıq;

2. Misir prezidenti Ənvər Sadatın İsrail ilə sülh müqaviləsi imzalamasına etiraz;

3. Fələstin xalqının nümayəndəsi yalnız Fələstin Azadlıq Təşkilatıdır və ərəb dövlətlərinin bu məsələdə haqqı yoxdur;

4. Fələstinli əsirlərin azadlığı;

5. Fələstin xalqına sevinc töhfə etmək;

6. İşğalçıların qəlbində qorxu yaratmaq.

Səmir dənizə çox tez alışdı: uzaq məsafələrə üzmək, çətin şəraitdə qayıq sürməyi öyrənmək, kompasla işləmək və naviqasiya, quruya çatmaq, gizlənmək və s.

O, yoldaşları ilə birlikdə dörd ay boyunca məşqdə oldu. Əbul-Abbas Səmiri təklikdə bir yerə çağırıb dedi: Bu dörd nəfərdən ibarət qrupda təkcə sən əməliyyatın məqsədini bilirsən. Çünki məlumatın məxfiliyi qorunmalıdır.

Sonra planı izah etdi: böyük bir taxta qayıqla dənizə girirsiniz, Livandan Nahariya səmtinə gedirsiniz, çünki bura sahilə ən yaxın şəhərdir. Taxta qayıq çox yanacaq sərf etdiyi üçün beş mildən sonra yolu rezin qayıqla davam edirsiniz.

Səmir portağal ağacının altında uzandı və yuxuya getdi; dərin yuxu. İki saat sonra onu yuxudan oyatdılar. Gecə yarısı olmuşdu və getmək vaxtı idi.

Səmir qeyd dəftərçəsində yazdı: Şənbə, 21 nisan[1] 1979.

---

[1]. Aprel.

On yeddi yaşının olmasına üç ay, bir gün qalmışdı. Bu da, əməliyyatın başlaması üçün ən yaxşı zaman idi. Səmir qayıqda oturub qayığın gedəcəyi səmtə baxdı. Dəniz dalğalı idi. Əbul-Abbasın sözləri yadına düşdü. O, Səmirə Rəs-Naqurə radarını xatırlayıb demişdi ki, israilli gözətçilər müntəzəm olaraq havaya işıqlandırıcı atəş açırlar, bununla dənizə nəzarət etmək istəyirlər.

Səmirin yadına işləri korladığı gecə düşdü. Gülməyi gəldi. O gecə hərbi komandir Əbul-Abbas Səmirdən bütün baş verənləri yazmağı tələb etmişdi. Səmir əlini köynəyinin cibinə atdı, şalvarının cibini yoxladı. Qələm götürməyi unutmuşdu. Təkcə qəhvəyi marker tapdı. Komandir ondan hesabat istədikdə kağızın üzərinə qəhvəyi markerlə hesabat yazdığını gördü. Heç nə oxumaq olmurdu. Komandir ona təzədən kəşfiyyat əməliyyatına getməyi əmr etdi.

Səmir birdən qayığın içində uzandı və başqalarına da uzanmaq barədə işarə verdi. Bir qayıq onlara yaxınlaşırdı. Səmir başını bir az qaldırdı və qayığın üzərindəki yazıya baxdı: Debur...[1]

Səmirgilin qayığı sanki dənizdə coşqun dalğalar arxasında gizlənmişdi. Səmir hətta israilli dənizçilərin səsini də eşidirdi. Hamı nəfəsini sinəsində həbs etmişdi.

Səmir düşünürdü: Sahilə çatacağıqmı? Nə qədər çəkəcək? Əməliyyatı sona çatdıra biləcəyik, yoxsa uğursuz olacaq? Uğursuz olsa, hansı üzlə qayıdacağıq? Düşmən bizim meyitlərimiz üzərində qalib ovçular kimi şəkil çəkməyəcək?

9 minaatan gülləsi, 1500 pulemyot gülləsi, 10 qumbara, 11 kalaşnikov maqazini, səsboğanla birlikdə bir tapança,

[1] İsrailin dəniz patrulu.

bir neçə durbin və simsiz aparat çantada yerləşdirmişdilər. Qayıq kiçik bir silah-sursat anbarı idi.

Əbdülməcid, Muhənna, Səmir və Əhmədin qəlbi bir quş kimi çırpınırdı. Çox keçmədi ki, debur (patrul) qayığı əks istiqamətə qayıtdı. Əcnəbi qayıq görə bilməmişdilər. Əcnəbi qayığın sərnişinləri indi sahilə yaxınlaşırdı; Nahariya sahilinə.

## Nahariya

Səmir saatına baxdı. Gecə yarısından iki saat keçmişdi. Qayıqları qumlu sahildə yan almışdı. Yoldaşlarına işarə ilə anlatdı ki, qayığı sahilin ən qaranlıq yerində bağlamaq lazımdır.

Silahları götürdülər. Çantaları çiyinlərinə ağırlıq edirdi. Dörd gənc oğlan tam hərbi taktika ilə bir-birinə burulmuş qayalıqların arasından sahilin aydınlıqlarına tərəf yola düşdülər. Dalğaların sürünməsindən və qumlu sahildə çəkilməsindən başqa bir səs eşidilmirdi. Əməliyyatın başlanmasına bir neçə addım qalmışdı. İndi cırcıramaların da səsi gəlirdi. Onların uzun-uzadı səsi sıx ağaclar arasından eşidilirdi.

Səmir ağaclara və onların kölgələrinə baxırdı. İşin əvvəlində kiminsə ağacların arxasında gizlənib onları güdməyini istəmirdi. Gecəcənin qaranlığı balaca zeytun və portağal ağaclarının üzərinə kölgə salmışdı. Addımları qətiyyətli idi, amma səssiz və çox ehtiyatla yol gedirdi. Getdilər, axır ki, ağaclar qurtardı. Sarı işıq yaşıl çəmənlərin üzərinə düşmüşdü. Belə ki, Səmir bir anlıq çəmənlərin sarı olduğunu düşündü. Yan tərəfləri çəmən əkilmiş bir uzun küçə sonu görünməz şəkildə davam edirdi. Səmir küçənin adı yazılmış tablonu oxudu:

Şabutenski. Bu sözü o vaxta kimi eşitməmişdi. 61 nömrəli böyük bir villa dörd gəncin gözü qarşısında idi. Səmir dayanıb evə baxdı. Yoldaşları da dayandı. 16 yaşlı komandir nə etmək istəyirdi? Yoldaşları bunu bilmirdi.

Səmir dedi: - Baş komandanlıqdan bizə Həmudun qəhrəmanlıq xatirəsinə bir polis maşınını məhv etmək tapşırılıb.

Muhənna: - Axı burada polis maşını yoxdur.

Səmir: - Pusqu quracağıq. Əgər gəlməsə, özümüz dəvət edəcəyik.

Xəyalında yanmaqda olan neçə maşın görürdü.

Külək əsirdi. Dəniz hələ də tufanlı idi. İslanmış paltarları bədənlərinə yapışmışdı, canlarına üşütmə düşmüşdü.

Səmir işarə etdi ki, iki qrupa ayrılıb iki tərəfdən bir hədəfə atəş açmağa hazır olsunlar.

Heç kim yox idi. Səmir fənəri yandırdı. Villanın yanında saxlanmış iki avtomobilin nömrə nişanı sarı rəngdə idi. İsrailə girdiyinə arxayın oldu. Ürəyi sakitləşdi. Simsiz rabitəni kağıza yazdığı kod üzərində tənzimlədi. Düyməni basdı və Əbul-Abbasa mesaj göndərdi. Bir neçə saniyə sonra Əbul-Abbasın səsi dörd gəncin qulağına çatdı: Uğurlar olsun, dostlar!

Səmir kağızdakı kodu cırıb atdı. Külək kağız parçalarını fırladaraq uzaqlara apardı.

Səmir saatına baxdı: Gözləməyin faydası yoxdur.

Bir az axtarış etdikdən sonra özünü 61 nömrəli villaya çatdırdı. Silahının qundağı ilə qapını möhkəm döydü. Bir neçə saniyədən sonra evin qapı telefonundan bir qadının səsi eşidildi, yəhudi dilində nəsə deyirdi. Səmir fikirləşdi ki, ola bilsin deyir: Gecənin bu vaxtı nə istəyirsiz? Niyə yatmağa qoymursuz?

Səmir yenə qapını döyüb, bu dəfə pusqu üçün ən münasib mövqe olduğunu düşündüyü yerə tərəf qaçdı.

Bir neçə dəqiqədən sonra polis maşını gəldi. Səmirin istədiyi də elə bu idi. Onların gizləndiyi yer, həmin Şabutenski küçəsində bir döngənin başı idi.

Polis maşını döngənin başına çatdıqda sürətini azaltdı. İndi hücum üçün ən uyğun vaxt idi; ildırım sürətli bir hücum. Muhənna minaatanı çiyninə qoydu, Səmirin işarəsi ilə polis maşınına tərəf atəş açdı. Səmir avtomat ilə, Əhməd və Əbdülməcid də pulemyotla maşına tərəf atəş açdılar. Maşın küçənin bir tərəfində dayanmışdı və od içində yanırdı. Sürücünün başı sükanın üzərinə düşmüşdü. Digər polislər maşından bir neçə addım uzaqlaşmışdı ki, pulemyotun atəşi onları yerə sərdi.

Artıq atışma səsi dayanmışdı. Səmir sonu görünməyən küçəyə qulaq verdi. Maşın səsi gəlirdi. Yoldaşlarına pusquya qayıtmaq işarəsi verdi.

Sahil patrul maşını döngəyə çatmışdı. Səmir küçənin ortasına qaçdı. Əlində silah tutmuş yeniyetməni görən sürücü əyləcə basdı və maşından yerə düşdü. Onun yoldaşı da eyni hərəkəti etdi. Onlar bir göz qırpımında sahildəki ağacların arasında gözdən itdilər.

Səmir əli ilə bir binanı göstərdi. Onun fikrincə bu bina israilli komandirlərin istirahət yeri idi.

Tikanlı məftillərdən keçdilər. Qarşılarında böyük bir gözətçi iti dayanmışdı. Səmir ona atəş açdı. İtin ulamağı bir neçə saniyədən sonra ölümcül sükuta çevrildi.

Muhənna üzünü binaya tərəf döndərdi. Minaatan fırlandı, sonra vahiməli bir səslə binanın ikinci mərtəbəsində partladı.

İkinci və üçüncü mərmilər də birinci və üçüncü mərtəbələrdə partladılar. Dörd gənc binanın ətrafında

gəzib girişə yaxınlaşdılar. Bina od içində yanırdı. İçəridən qəribə səs-küy eşidilirdi. İki nəfər birinci mərtəbənin pəncərəsindən asılı qalmışdı. Üçüncüsü isə ikinci mərtəbədən çəmənin üzərinə düşdü.

Səmir dedi: - Əbdülməcid, mənimlə gəl! Muhənna sən də burada qal, maşın gəlsə, minaatanla partlat.

Üç gənc üç mərtəbəli binaya girmişdi. Səmir yoldaşlarına dedi ki, yuxarıdan daha yaxşı nəzarət edə bilərik, ona görə də üçüncü mərtəbəyə qalxaq, ora hərbçilərin yeri olmalıdır. Ehtiyatsızlıq etmək olmaz, çünki onlar daha peşəkardır. Əbdülməcidə dedi ki, otaqların hamısına atəş açsınlar və kiçik otaqlara qumbara atsınlar.

Bu iş üçüncü mərtəbədən başlandı. Bütün otaqları axtardılar və bir neçəsi də qumbara ilə məhv edildi. İkinci mərtəbə işıqlı idi. Qapıların qıfılına atəş açdılar, sağ-solu gülləyə tutdular.

Əbdülməcid bağlı qapıların birinə tərəf getdi. Səmir “Macid qapını təpiklə aç!” deyə, qışqırmaq istəyirdi ki, Əbdülməcid qapını əli ilə açdı. Başını qapıdan içəri salan kimi ardıcıl iki atəş onu yerə sərdi.

Əbdülməcid yerə yıxılmışdı. Səmir dostunun yanında oturdu. O, artıq nəfəs almırdı. Bir güllə ona tərəf atıldı.

Səmir yerə uzandı. Qumbaranı əlinə alıb fitilini çəkdi və israilli hərbçinin gizləndiyini güman etdiyi yerə tərəf atdı.

Partlayış səsi otağı alov və tüstü dağında görünməz etdi. Səmir ayağa qalxıb partlayış olan tərəfə getdi. Macidi vuran adam çarpayının üstündə cansız qalmışdı. Sağ əlində bir tapança var idi. Səmir öz-özünə dedi: Bu da hərbi qvardiyanın digər bir üzvü.

Əbdülməcidə tərəf qayıtdı. Onun əlini əlinə aldı və onun üçün dua etdi.

Muhənna və Əhməd aşağıda idilər, atışma arasında divara söykənmişdilər.

Səmir başını yellədi, qəmli-qəmli dostlarına baxdı. O, tək qayıtmışdı. Onlar Macidi, yəni Əbdülməcid Aslanı itirmişdilər.

Dedi: - Bu adamlardan bir neçəsini əsir götürməliyik.

Hər üç nəfər dəmir qapısı yarı açıq qalmış zirzəmiyə tərəf getdilər. Səmir dedi: - Çox güman ki, bizdən bir neçə dəqiqə əvvəl bir qrup buradan gedib.

Əhməd və Muhənna silahlarını irəlidə tutaraq, yavaşca Səmirin arxasınca getdilər.

Zirzəmiyə bir-birinin ardınca üç qumbara atdılar. Üç ardıcıl partlayışdan sonra artıq zirzəmidən səs gəlmirdi.

Alt mərtəbə alov və tüstüdən görünmürdü. Səmir qışqırdı: - Burada bir neçə sağ adam tapmaq olmaz?!

Muhənna göz-qaş edərək bağlı qapıya tərəf işarə etdi.

Səmir pilləkanın aşağı hissəsindən sonra başlayan dar koridora tərəf qaçdı.

Çiyni ilə qapıya möhkəm vurub cəld qapıdan aralandı. Otağın küncündə bir kişi dayanmışdı. Dağınıq və buruq saçları alnının yuxarı hissəsini örtmüşdü. Əynində yataq paltarı var idi. O, təqribən dörd yaşlı bir qız uşağını qucağına almışdı və ivritcə qışqırırdı. Səmir onun üstünə qışqırdı:

- Uşağı yerə qoy.

Kişi onun dediyini etmədi. Səmir onun qolunu tutdu, amma kişi uşaqdan ayrılmaq istəmirdi.

Səmir Muhənnaya dedi: - Bu, elə bilir ki, bu işi ilə bizi gecikdirə biləcək və ona kömək gələcək.

Silahının qundağı ilə onun çiyninə vurdu və uşaq qucağında ikən qapıya tərəf itələdi.

Binanın çölündə atışma səsi gəlirdi. Sanki, bütün şəhər sahildəki evlərdə hadisə baş verdiyindən xəbər tutmuşdu. Kişi bağırıb kömək istəyirdi. Səmir və yoldaşı onu sahildə rezin qayığın onları gözlədiyi səmtə apardılar.

Tər dənələri Səmirin alnını və buruq saçını islatmışdı. Qışqırırdı: - Qızını yerə qoy. Bizə yalnız sənin özün lazımsan.

Kişi isə qızını qucağından yerə qoymurdu.

Muhənna dedi: - Bu axmaq nə üçün sözə baxmır?

Əhməd: - Bizim ona atəş açacağımızdan qorxur. Bilir ki, biz qızının yanında ona atəş açmarıq.

Açılan atəşlər hər üçünü dərhal gizlənməyə məcbur etdi. Səmir Əhmədə cənuba tərəf getməyi tapşırdı. Muhənnaya isə şərq tərəfi gözləməyi əmr etdi. Onlara tərəf gələn maşınları minaatanla hədəfə almaq istəyirdi.

Simsiz rabitə işləmirdi. Səmir qəzəbləndi və onu dənizə atdı.

Qayıq görünürdü, amma israillilərin hədəfində idi.

Səmir qışqırdı: - Əhməd ehtiyatlı ol! Hər kimi görsən ona tərəf atəş aç. Səsucaldanın səsi sahildə yayıldı: Ey terrorçular, sizinləyik. Təslim olun. Girovlarla işiniz olmasın.

Səmir səsə tərəf atəş açdı. Projektorlar qayığa tuşlanmışdı.

Səmir girov götürdüyü kişidən qayığa tərəf getməyi tələb etdi. Kişi yavaş-yavaş qayığa yaxınlaşdı. Lakin işıqlı yerə çatan kimi silahlar işə düşdü. Kişi geri qayıtdı və qızını qucağından yerə qoydu.

Səsucaldanın yenə səsi gəldi: Siz livanlılar istəyirsinizsə, qayığa tərəf gedə bilərsiz. Amma girovu buraxın. Biz sizə tərəf atəş açmayacağıq.

Səmir başını döndərdi. İki nəfər arxadan onlara yaxınlaşırdı. Bir qayanın arxasında gizlənib onların yaxınlaşmasını gözlədi. Dörd-beş metirliyə çatdıqda qayanın arxasından çıxıb onları güllələdi.

Hər ikisi yerə sərildi. İşlərinin bitməyindən arxayın olmaq üçün onlara yaxınlaşdı. Birinin çiynində rütbəsi var idi. Səmir onun hərbi geyiminin üzərinə yapışdırılmış ingiliscə yazını oxudu: general Yusif Təsahur. Nə böyük ov!

Projektorlar onların hər ikisinin üzünü bir neçə saniyə işıqlandırdı. Səmir qayaların arxasında mövqe tutdu. Yağış kimi yağan güllələrin səsi ucaldı. İndi hər tərəfdən onu və dostlarını hədəfə almışdılar.

Girov kişi dəli adamlar kimi bağırırdı.

Səmir dodağının altında dedi: Alçaq israilliləri bizə tərəf çəkmək istəyir.

Güllələrin səsi lap yaxınlaşmışdı. Səmir ona tərəf atəş açdı. Bir an dönüb arxaya baxdı. Qız uşağı sahil qumları üzərində düşmüşdü. Kişinin daha səsi gəlmirdi.

Uzaqdan eşidilən helikopterin gurultusu onun baxışını səmaya tərəf çəkdi. Helikopter yaxınlaşırdı. Projektor qum sahilini gün kimi işıqlandırmışdı. Həmin anda helikopterdən açılan atəş sahildə qum dənələrini qaldırırdı.

Güllələrdən birinin qəlpəsi Əhmədin üzünü qana boyadı. Qəlpə sol gözünün üstünü yarmışdı. O, artıq yaxşı görə bilmirdi. Səmir dedi:

- Helikopteri vur.

Əhməd çətinlilə helikopterə tərəf atəş aça bildi. Helikopter uzaqlaşdı.

Səmir Əhmədin köməyinə getmək istədi. İki ardıcıl güllə onun qolunu və çiynini dəldi. Qan damlaları sahil qumları üzərinə axırdı. İki israilli hərbçini vurmaq istədikdə, üçüncü güllə onun böyrünü yaraladı.

Dördüncü güllə Səmirin çiyninə dəydi. İndi onlar bütün gücləri ilə qayığa tərəf getməli idilər.

Ağrı Səmirin amanını kəsmişdi. Titrəyən əlləri ilə maqazini dəyişdi. Bu vaxt beşinci güllə ona kürəyindən dəydi.

Artıq gücü qalmamışdı. Hər şey gözündə qaranlıq görünürdü, səsləri eşitmirdi. Uzun-uzadı bir fit səsi qulağında yayılmışdı. Sanki sonsuzluğa qədər uzanan bir fit.

# Sümüyünün iliyinə qədər işləyən ağrı

Elə bildi ki, dərin bir yuxudan oyanıb. Qan iyini hiss edirdi. Qan burnunda və ağzında laxtalanıb qalmışdı. Gözləri heç yeri görmürdü. Yanında bir əsgər dayanmışdı. Bunu onun səsindən və dizlərini sıxan çəkmələrindən tanımışdı. Qana boyanmış kipriklərini açmaq üçün bir neçə dəfə başını silkələdi. Bir nazik işıq və əlinə qoşulmuş boruları gördü. Xilas olduğunu düşündü. Çünki sistem qoşulması, yəni mehribanlıq, yəni həyata ümid. Əsgər yenidən Səmirin dizlərini sıxdı. Onu yatmağa qoymurdu. Səmir bu dəfə ağrının şiddətindən huşdan getdi. Bir az sonra spirtin tünd iyi ilə huşa gəldi.

Əsgər spirtli pambığı Səmirin kipriklərinə sürtdü. Sərt bir yandırıcılıq onun sümüklərinin iliyinə qədər yandırdı. Bir az sonra ətrafını əvvəlkindən daha yaxşı görə bilirdi.

Bir zabit onun çarpayısının yanında addımlayırdı. Qəzəbli və hövsələsiz. Səmirin baxışlarını gördükdə bağırdı:

- Neçə nəfər idiniz? Adlarınız nə idi?

Səmirin danışmağa taqəti yox idi. Bədəninin ağrıları onu tərpənməyə qoymurdu. Hər dəfə tərpənəndə canına ağır bir ağrı düşürdü.

Zabit otaqda bir neçə dəfə addımladıqdan sonra işarə ilə əsgərə sərbəstlik verdi. Bir neçə dəqiqə sonra iki nəfər içəri girdi və Səmiri xərəyin üstünə atdılar. Kiçik otaqda olan sarı işıq yavaş-yavaş sönürdü. Sanki o, təzədən huşdan gedirdi.

Bir saat idi ki, Səmirin cansız bədəni xərəyin üstündə, bəzən də sürüklənə-sürüklənə iki binanın arasında gəzdirilirdi. Başqa bir zabit qəzəbli gözləri ilə qrupun qayıdış yerinin hara olduğunu, ümumiyyətlə, nə üçün gəldiklərini bilmək istəyirdi.

Səmir dilə gəldi. Ona elə gəlirdi ki, ən təhlükəsiz cavab səfərlərinin miniyi olan o rezin qayığa işarə etmək idi. Hərbçi müstəntiq bağırdı:

- O bir parça çirkli dörd terrorçunu necə dənizdən keçirə bilər?

Səmir gülümsündü: - Təkcə biz dörd nəfər deyildik, sursatımız da var idi.

Zabit təpiklə onun qarnına vurdu. Qan ağzından çölə töküldü.

- Sonra hara gedəcəkdiniz?

Səmir inlədi: - Bilmirəm. Komandir bilir; Macid.

Zabit bağırdı: - O ki, ölüb. Niyə boş-boş danışırsan, oğlan?

Səmir Macidə güllə dəyməsini görmüşdü və əmin idi ki, komandirlik məsuliyyətini Macidin boynuna atmaqla, bir çox sual yükünün altından çıxa biləcək. Amma

müstəntiq qəbul etmirdi. Səmir və Əhmədin hadisə haqda heç nə bilməməsi onlar üçün inanılmaz idi. Ona görə də işgəncəni seçdilər.

Çox tez onu ayrı otağa apardılar. Yaralarını bağladıqdan sonra ona qan köçürdülər. Yaxşı nəfəs ala biləcəyinə əmin olduqdan sonra bir nəfər avtomat silahla otağa girdi və bağırdı:

- Hər şeyi de, yoxsa elə indi bədənini süzgəc edəcəyəm.

Səmir gözaltı ona baxdı. Bir neçə saniyə sonra yenə gözlərini bağladı. Bir an sonra möhkəm bir zərbə onu huşa gətirdi. Yenə tünd spirt iyi və ağrı. Bu dəfə ağzının aşağı hissəsində. Elə hiss etdi ki, ağzı qopub. Əsgərin silah zərbəsi ölümü Səmirin gözünün qarşısına gətirdi.

Üç saat başının üstündə idilər ki, danışsın, hətta bir-birinə zidd sözlər desin.

Əvvəlki zabit otağa girib bağırdı: - Buraxın bu dananı. Suriya radiosu elə indi Nahariyaya hücumla bağlı xəbər verdi. Bunları xilas etmək üçün vəd olunmuş yerə gəlməli olsaydılar da, bu biabırçılıqla daha xilas əməliyyatı olmayacaq.

Qanlı paltarlarını çıxartdılar. Əsgər onu otağın çırağının qarşısında saxladı və işıq düşən dəlikləri saymağa başladı:
- Nə qədər it canı var səndə, Səmir Qintar! Beş güllə, zebranı da öldürür, amma sən hələ dirisən.

Qoltuğuna girib əməliyyat yerinə apardılar. Muhənna və Macidi tanıdı. Düşündü ki, onların kimliyi barədə yalan deməməlidir. Çünki onların izi itə bilər.

Təzədən istintaq otağına qaytardılar. Bu, işgəncə və döyülmək demək idi. Səmir özünə söz vermişdi ki, heç nəyi qəbul etməsin, heç sirri açmasın. Amma bir gün sonra onu Əhmədlə üzləşdirəndə, başa düşdü ki, Əhməd onun öldüyünü güman edib və əməliyyatın komandirinin Səmir

olduğunu deyib. Buna görə onları helikopterə mindirdilər. Yuxarı qalxdıqdan sonra oradan yerə atmaq istədilər. Səmir yenə ölümü bir addımlığında görürdü. Bir əl onu zorla helikopterdən aşağı atmağa çalışırdı. Lakin bu, onları qorxutmaq üçün kələk idi. Artıq onlar əməliyyat komandirinin Səmir olduğunu bilirdilər. Bu səbəbdən onu danışdırmağa səy edirdilər.

Həkim geyimi geyinmiş bir qoca kişi onu çarpayının üstünə itələdi:

- Mən müxtəlif sarğı qaydaları üzrə mütəxəssisəm. İnanıram ki, sakitləşdirici və hissizləşdiricidən istifadə boş şeylərdir. İnsanın bəzi ağrılara dözməyə gücü var. İşimi görsən, nə etmək istədiyimi biləcəksən...

Əlində nazik bir kəlbətin var idi: - Bu iş alətimdir, güllələri çıxarmaq üçün.

Ağrı ölümü təcəssüm edirdi. Zəiflik bütün bədənini bürümüşdü. Artıq dözə bilmirdi. Anasını səslədi, böyük bacısı Sənanı. Lakin onlar Səmirdən çox uzaqda idilər, çox uzaqda.

Dörd əsgər onun əllərini möhkəm tutmuşdu. Ağ geyimli kişi gözlərini bağlayıb Səmirin bədənindəki güllələri axtarırdı. Səmirin huşdan getdiyini görəndə üzünə sillə vurdu: - İndi yatma! Yatmağa vaxt çoxdur. Bax... bu, birinci güllə. Dınq... Bu, güllənin polad qaba düşməsinin səsi idi. Bunları sənin bədənindən çıxardırıq və zavoda göndəririk ki, müharibədə yenə onlardan istifadə etsinlər.

Səmir qəzəblə kişiyə baxdı. Sonuncu güllə sinəsində idi. Titrək səslə dedi:

- Xahiş edirəm buna əl vurma. İstəyirəm bir nişanə qalsın ki, heç vaxt sizə qarşı nifrətimi unutmayım.

Kişi nazik plastik borunu onun sinəsinə batırdı: - Bu da məndən sənin bədənində yadigar.

Səmir çox ağrı çəkdi.

Kişi üfunətli qanı bu boru ilə Səmirin bədənindən çıxarmaq istəyirdi. Axırıncı gülləni çıxartmadı. Plastik borunun ətrafını sarıdı və Səmiri o vəziyyətdə qoyub getdi.

Başına kisəyə oxşar bir torba keçirdilər. Pis iy verirdi. Artıq onda ah çəkməyə də can qalmamışdı. Başı gicəllənirdi, səslər qulağına anlaşılmaz gəlirdi. Nə olacağını bilmirdi. Bəlkə də bu son dayanacaq deyildi, bəlkə də son dayanacaq idi.

## Qırmızısaqqal

Səna bir qaya daşına söykənib çox uzaqlarda ən qırmızı rəngdə batmaqda olan günəşə tamaşa edirdi. Sanki bir daha şərqdən çıxmayacaqdı. Səmiri düşünürdü. Saxlanılmasından neçə gün keçirdi, heç kimin onun başına nə gəldiyindən xəbəri yox idi.

Səna yanağına süzülən yaş damlalarını silib öz-özünə dedi: - Güclü ol, qız! Balaca qardaşın qayıdacaq.

Göydə gurultu səsi yayıldı. Bahar olsa da, göydə bulud görünmürdü. Deməli, bu, ildırımın səsi deyildi. Daha çox yaxınlaşmaqda olan sürətli təyyarənin səsi idi. Səna evə tərəf qaçdı. Həmişə qardaşı ilə günün batmasına tamaşa etdiyi yerdən evə qədər çox yol deyildi. Tələsik qapını döydü və qapının arxasında ananı gördükdə sakitləşdi. Özünü onun qucağına atdı. Elə bu an ilk bomba həyətə düşdü və hər şeyi vəhşi tufan kimi bir-birinə vurdu. İkincisi və üçüncüsü də düşdü. Səmirdən başqa hamı evdə

idi. Ata, qardaşlar, bacılar, ana və həmişəki munisi Səna. Ev xarabalığa dönmüşdü və ondan tüstü göyə qalxırdı.

Səmir gözünü açanda yuxu gördüyünü başa düşüb sakitləşdi. Amma yadına düşdü ki, 50 yaşlı qırmızı saqqallı müstəntiq Əbu Zəkan dünən ağır işgəncələr verərkən demişdi ki, biz ölkəmizin insanlarını sevirik. Ona görə də sənin öldürdüyün neçə nəfərin əvəzini çıxmaq üçün evini bombalayacağıq. İnanmırsan? Al, bu da xəritəsi.

Qəhvəyi rəngli kağızın üzərində Əbyə kəndinin xəritəsi və Səmirin evi onu məyus etmişdi. Özünü adamsız və tənha hiss edirdi.

Gördüyü kabus həqiqət idimi?! Bütün işgəncələr, ayıq halda güllələrin bədənindən çıxarılması, xaça çəkilməsi, bədəninə elektrik cərəyanı qoşulması, qan itirməsi və təzədən bədəninə qan vurulması bir yana, dünən eşitdiyi xəbər bir yana. Artıq gələcəyə ümidvar ola bilmirdi.

Sonrakı gün ona dedilər ki, İsrailin ərəb dilli telekanallarından birindən səninlə müsahibəyə gələcəklər. Saxta etiraf ərizəsini qarşısına qoydular. Müsahibədə deməli olduğu bu idi ki, o, pul qarşılığında belə bir əməliyyatı törədib. Çünki yoxsul ailədən olub. Yəni qorxu yaratmaq, daha çox qadın və uşaqları öldürmək üçün pul alıb. İkincisi budur ki, komandiri Əbul-Abbas əyyaş və narkotik aludəçisidir, Beyrutda ən yaxşı evlərin birində yaşayır. Üçüncüsü isə fələstinli gənclərə və yeniyetmələrə nəsihət etməlidir ki, Yasir Ərəfatın hərəkatına yaxın getməsinlər və onun adamlarının başqa gəncləri aldatmasına imkan verməsinlər. Çünki Ərəfat kimilər öz uşaqlarını təhsil almaq üçün Avropa və Amerikaya göndərir, başqa gəncləri isə müharibə meydanına çağırırlar.

Səmir qəbul etmədi. Dedi ki, televiziyaya müsahibə verməyə razıdır, amma onların dediyini yox, öz sözünü deyəcək.

Sabahkı gün bir başqası onun yanına gəldi. Özünü Fərid kimi təqdim edərək əvvəlki müstəntiqin davranışının və qeyri-insani işgəncələrinin ona dəxli olmadığını, amma Səmirin inadından dönməli olduğunu, müsahibədə onların istədiyi kimi danışmaq məcburiyyətindən danışdı.

Qayıdarkən bunu da dedi: - Əgər səni döysələr de ki, Fəridi çağırın.

Səmirin beynindən müxtəlif fikirlər keçirdi. Artıq harada olduğunu, nə istədiyini bilmirdi. Dostlarının ardınca danışmağa başladı ki, niyə onu tək qoyublar, nə üçün heç kim ona kömək etmir!

Ertəsi gün onu həkim klinikasına oxşar bir otağa apardılar. Təzədən ona işgəncə verdilər, yaralarını tərpətdilər, yumruq və təpiklə döydülər. Ona işgəncə verən şəxs qarşısında dayanmışdı, sistem qoşmaq istəyirdi. Dörd gün idi ki, heç nə yeməmişdi. Təkcə bir stəkan su, onu da İsrail televiziyası ilə əməkdaşlığa və müsahibəyə görə.

Sistemi qoşdular. Rahat nəfəs aldı. Çünki sistem qurtarana kimi bir az yata biləcəkdi. Dörd gün idi ki, rahat yatmamışdı. Hətta huşdan getdikdə spirtin iyi, ya da soyuq su ilə ayıldırdılar.

Gözlərini yumdu və ailə barədə düşündü; Sənanı, kəndi, ananı, dəfələrlə Tunisdə oxumağı qəbul etməsi üçün yalvaran atasını.

Fərid onun yanına gəldi. İki əsgər Səmiri çarpayının üstündə oturtdu. Fərid dedi:

- Xəbərləri eşitmisən?

Səmir ikinci müstəntiqin gözünə baxdı.

Fərid dedi: - Dünən Şüeyb peyğəmbərin bayramı idi. Bilirsən də nə günüdür?

Səmir iyirmi beş nisanı fikirləşdi. Yazın girməsindən təqribən bir ay ötüb; iyirmi beş aprel.

Fərid davam etdi: - Yəhudilər və druzilər Tiberiyanın Hattin kəndində toplaşdılar və baş nazir Menaxem Begindən səni edam etməyi xahiş etdilər. Sənin druzilər üçün rüsvaylıq olduğunu dedilər. İndi özün bilərsən. İstəsən etiraf edərsən, bağışlanarsan, ya etiraf etməzsən, edam olarsan. Mənə kömək et, vəziyyəti yaxşılaşdırım.

Səmir sözünün üstündə dayanmışdı. Dağınıq saçlarını dibindən qırxdılar, təkcə alnının qarşısında bir az tük saxladılar. Əsgərlərdən biri Səmirin qalmış tüklərindən yapışıb, onu qaldırdı. Az qaldı Səmirin dərisi başından qopsun.

Əbu Zəkan bağırdı: - Aparın o kişiciyi görsün.

Onu bir otağa apardılar. Elə bil, otaqda kimsə var idi. Səmir görə bilmirdi, başına bir kisə keçirmişdilər.

Qulağına bir səs dəydi. Cənab Səmir, mən Məhəmməd Əfifiyəm. Mən də bir ay əvvəl sənin kimi əməliyyata gəlmişdim. Həbs olundum.

Səmirin yadına düşdü və onun simasını xatırlamağa çalışdı. İsrailin ərəb dilli telekanalına müsahibə verdiyi səsi onun səsi ilə uyğunlaşdırmaq istəyirdi. O demişdi ki, Fəth Hərəkatının təsisçisi Xəlil əl-Vəzir narkotik maddələr qaçaqmalçısıdır.

Məhəmməd dedi:

- Hər nə istəyirlərsə et ki, rahat olasan. Gör, mən necə rahat olmuşam.

Səmir kisəni başından çıxartdı.

Məhəmməd Əfifinin otağında çarpayı və tualet var idi. Məhəmməd siqaretini yandırıb dedi:

- Onlar indi evlərində televizorun qarşısında dirsəklənibələr. Həbsxanaya düşən, işgəncə olunan, yeməksiz qalan isə sən və mənəm. Ağıllı ol, oğlan! Sözdür də. Heç kim buna görə səni sorğu-suala çəkməyəcək.

Səmir Əfifiyə baxıb təbəssüm etdi.

Əsgərlər gəlib onu şkafa oxşayan otağa apardılar. Eni əlli santmetr, uzunluğu üç metr və qırmızı rəngli bir otaq idi.

İşgəncənin yeni mərhələsi başlamışdı.

Ondan əməliyyat barədə soruşdular. O, əməliyyatın hədəfini dedi. Ürəyi sakit olmuşdu ki, indi nə desə, heç kim ələ keçməyəcək. Dedilər ki, sən dinc sakinləri öldürmüsən.

Dedi: - Eynilə sizin kimi; Səbra və Şatilaya hücum etdiniz, qadın və uşaqları öldürdünüz. Deyr Yasin yadınıza gəlir? Kəfr Qasim, Kəfr Həmmam, Kəfr Kəla necə? Müharibəni siz başladınız, biz yox.

Yeddinci gün ondan dörd yaşlı qız uşağını öldürdüyünü etiraf etməsini tələb etdilər. Səmir qəbul etmədi. Dedi:

- Mən israillilərə tərəf atəş açarkən, qətiyyən qız uşağı görməmişəm. Əminəm ki, israillilərin özü uşağı öldürüblər.

Əbu Zəkan Səmirin başını aşağı saldı və stolun üzərində olan qəhvə ilə dolu stəkana yaxınlaşdırdı. Səmirin əlləri bağlı idi. Əbu Zəkan onun üzünü stəkana bir az da yaxınlaşdırdı. Qəhvənin ətri onu huşdan aparırdı. Amma üzünün yanması ilə başa düşdü ki, Əbu Zəkan onu təhqir etmək üçün bu işgəncə üsulunu da sınaqdan çıxarır. Səmir çox çətinliklə ayaqları üstə qalxdı və bir anda stolun üzərindəki mütaliə lampasını qaldırıb iki əli ilə onu Əbu Zəkanın tüksüz başına çırpdı. Əbu Zəkan neçə dəfə

qıvrılıb yerə yıxıldı. Əsgərlər otağa girdilər, üz-gözü qana boyanmış müstəntiqi apardılar.

Dani Haran, nüvə fizikaçısı ölmüşdü və qızını da İsrail əsgərləri öldürmüşdü. Şəhərin təhlükəsizliyi pozulmuşdu. Səmirdən etiraf almaqla şəhərə təhlükəsizliyi qaytarmaq istəyirdilər.

Altı ay sonra Fərid yenidən Səmiri görməyə getdi. Ona bir neçə şey təklif etdi. Təkliflərinin arasında biri daha xoşagələn idi: ailəsinə məktub yazmaq.

Soruşdu: - Siz mənim ailəmi öldürməmisiz?

Onların sükutundan Səmir ailəsi barədə deyilənlərin hamısının yalan olduğunu başa düşdü. Onu sındırmaq üçün yalan demişdilər. İndi o, bacısı Səna ilə günəşin batmasına tamaşa etmək üçün söykəndiyi qaya daşını düşünürdü.

# Təlatümlü çay

Əziz dostum Nail!

Nahariya əməliyyatında həbs edildiyim və bəlkə də barəsində oxuduğun, ya radiodan eşitdiyin o hadisələr baş verəndən sonra ilk dəfədir ki, sənə məktub yazıram. Yazdığım məktubu sənə göndərə bilmirəm. Çünki elə düşünərlər ki, sən də mənimlə birlikdə və bu əməliyyatın bir hissəsi olmusan. Həyatına təhlükə yaranmasını istəmirəm. Vəziyyət yaxşılaşana qədər sənə yazacağım məktubları kameramın dəlik-deşiklərində gizlədəcəyəm. Bu məktublar mənim üçün xatırlama hökmü daşıyır; xatirə yazmaq kimi.

Əbu Zəkan, ya həmin qırmızısaqqal müstəntiq bu müddət ərzində mənə çox əzab-əziyyət verib. Amma mən ondan daha inadkaram.

Ərdincin qəhvəxanasında televizorda İzzəddin Qəssam teleserialına baxmağımız yadına gəlirmi? Hələ də musiqisi yadımdadır. Sən də o musiqini sevirdin. İzzəddin Qəssamın müqaviməti mənim üçün böyük bir örnək idi; bəlkə də bizim dövrümüzün adamlarının hamısı üçün. O vaxtlar İzzəddin Qəssam qrupuna qoşulmaq istəyirdim. Halbuki o, biz dünyaya gəlməzdən təqribən 10 il əvvəl şəhid olub. Mən də onun kimi olmaq, müqavimət qrupu yaratmaq istəyirdim. Haradadır o günlər!

İşgəncə və çəkdiyim əzab-əziyyətlərdən heç nə yazmıram. Çünki bu ağrılı-acılı xatirələrdir.

Əbu Zəkanın mənim İordaniyada tutulmağımdan xəbəri var idi. İstintaqların birində mənə qəzəblə dedi: - Sən keçən il bir əməliyyat qrupunun başçısı olduğun üçün İordaniyada həbsdə olmusan. Siz İsrail ərazisinə girmisiniz. İordaniyaya getmədiyini deyə bilməzsən. Bizim İordaniya kralı Hüseynlə çox yaxşı münasibətlərimiz var. Bizə deyib ki, sən on bir ay İordaniyanın müxtəlif həbsxanalarında olmusan; on yeddi gün sərhəddə, sonra mərkəzi kəşfiyyat həbsxanasında, daha sonra Məhat həbsxanasında. Məqsədiniz Bisan olub və orada girov götürmək istəyibsiz...

Heyrətdən yerimdə quruyub qaldım. Hər şeyi düz deyirdi, hətta əməliyyatın hədəfini də bilirdi və bizim əməliyyatın uğursuz olduğundan da xəbəri var idi. O, kimin bizə silah-sursat çatdırmalı olduğunu öyrənmək istəyirdi.

Bu, o deməkdir ki, iordaniyalılar İsraildən heç nəyi gizlətmir, ya da xəbərləri və məlumatları mübadilə edirlər. İnanırsanmı? Bu da bizimlə qonşu, dost, eyni mədəniyyətli, eyni dilli ölkə.

Soruşdum: - Siz hər şeyi bilirsinizsə, nə üçün Nahariya əməliyyatının qarşısını almadız?

Qəzəbləndi və...

Hətta gecə, yaxud gündüz olduğunu ayırd edə bilmirdim. Keçən günləri və gecələri saymaq bir yana, yaralarımdan qanaxmalar təzədən başlamışdı. Təsəvvür et, bu dünyada bir nəfər tapıla ki, sənin yaralarına dərman qoya, onları sarıya, hətta çox qan itirdikdə sənə qan köçürə ki, diri qalasan və təzədən sənə işgəncə verə!

Əzizim Nail!

Bütün dindirilmə və işgəncə müddətində hər vaxt yuxuya getsəydim, yuxuda görürdüm ki, təlatümlü bir çaya düşmüşəm və xilas olmaq üçün əl-ayaq çalıram, amma özümü xilas edə bilmirəm. Ölüm həddinə qədər susuz olduğum üçün çayın suyundan içmək istəyirəm, lakin sudan içdikcə susuzluğum daha da artır.

Ümidvaram, sənin vəziyyətin yaxşıdır; məndən daha yaxşı.

Sənin dostun: Səmir Qintar

Sentyabr 1979

# Duel

Qırmızısaqqalın vəzifəsi sanki, necə olursa olsun, Səmirdən söz çəkmək idi. Hətta bəzi vaxtlar Səmirə elə gəlirdi ki, Əbu Zəkan on yeddi yaşlı yeniyetmə ilə siyasi mövzuda danışmaqdan ləzzət alır. Bəlkə də onu qane etmək istəyirdi ki, getdiyi yol səhvdir və sonda yolunu düzgün getmədiyini görəcək.

- Sizin kimi öldürdüyünüzü bilmək istəyirik.

- Mənim əməliyyatım aşkar idi. Mən bilmirəm, Fələstin torpağını işğal etmiş hər kəsi.

- Biz sənin silahının güllələrini tədqiqat üçün göndərdik. Kimləri öldürməyin məlum olub.

- Mən qrupun komandiri idim və bu əməliyyatın tamamilə düzgün olduğunu bilirəm.

- Siz mülki insanları öldürmüsüz.

- Mülki insanlar olsaydılar, İsrailin bu qədər maşını, hərbi sistemi, peşəkar, rəsmi və ehtiyat kadrlarından ibarət hərbçiləri müşayiət etməzdilər. Əslində, İsrail əhalisinin bütün adamları bu hərbi maşının üzvləridir. Kadr olmasalar da, mütləq ehtiyat qüvvələr idilər. Çünki silahları var idi. Əbdülməcid Aslana o binanın içərisindən atəş açıb onu öldürən, mülki vətəndaş deyildi, silahlı hərbçi idi. Bundan əlavə, İsraildə mülki vətəndaş varmı? Burada hər israillli başqa bir ölkədən gəlmiş bir işğalçıdır.

- Əgər onlar işğalçıdırsa, siz kimsiz?

- Siz Qəribiyyə yaşayış bölgəsini bombaladız; fələstinlilərin düşərgələrini bombalarla yandırdız; qaçqınları qətliam etdiz; Kəfr Kəla, Kəfr Qasim, Deyr Yasin, Kəfr Həmmamda günahsız insanları qətliam etmək sizin iftixarlarınızdandır. Siz Livanda əməliyyat

qərargahlarının yerini bildiyiniz halda, günahsız insanları öldürdüz. Adi hava limanında hərbiçi yox idi, amma hamını öldürdüz. Müharibəni başlayan siz olduz, dinc insanları hərbiçilərdən ayırmadız. 1978-ci ildə Beyrut aeroportunu vuran və on bir təyyarəni məhv edən siz deyildizmi? Siz Fələstində insanlara qarşı müharibə başladız, onları öldürdüz, qalanını da öz yurd-yuvasından didərgin saldız.

Əbu Zəkan dəqiq məlumat əldə etmək üçün bu söhbətin davam etməsini istəyirdi. Səmir geri çəkilmək istəmirdi. Lazım olanların hamısını deyirdi. Öz-özünə düşünürdü: Bundan artıq mənə nə edə bilərlər?

Əbu Zəkan dedi: - Biz öz torpaqlarımıza qayıtmışıq. Bura bizim vətənimiz idi. İki min il əvvəl bizi buradan qovdular və məbədlərimizi dağıtdılar. Öz vətənimizə qayıdacağımızı Allah bizə vəd etmişdi. İndi Allahın vədi həyata keçib.

Səmir dedi: - Allah kimsəyə başqasının torpağını hədiyyə etmir. Öz ata-baba torpaqlarında yaşayan hər kəsin haqqı-hüququ var. Sizdən əvvəl Fələstində kənanilər də yaşayırdı. Fələstinlilər həmin kənanilərdir və öz torpaqlarında yaşayırlar.

Əbu Zəkan əlini qırmızı saqqalına çəkdi. On yeddi yaşlı yeniyetmənin tarixdən bu qədər məlumatlı olmasından təəccüblənmişdi. Dedi:

- Yəhudilər də kənanilərdən qaynaqlanır, yəni kənanilər yəhudi oldular.

- Kənanilərdən bəziləri yəhudi oldular, hamısı yox. Siz kənani deyilsiniz, bura gəlməyə, camaatı qovmağa, sonra da “mən kənaniyəm” deməyə haqqınız yoxdur.

- Yəhudilər kənani olmasaydılar, fələstinlilər yəhudilərin bu ölkədə yaşamasını qəbul etməzdilər.

- Bəli, çünki Fələstində sionizm hərəkatından əvvəl yəhudilər yaşayırdılar. Bu vəziyyəti siz yaratdınız. Yadınızda qalsın, Fələstin Azadlıq Təşkilatının Fələstin əhd-peymanında gəlmişdir ki, Fələstin yəhudilərinin öz vətənlərində yaşamaq haqqı vardır. Balfur Bəyannaməsidən əvvəl bu ölkədə yaşayanlar, indi də Fələstində yaşayırlar.

- Biz 1917-ci ildə Rusiya hökumətinin Avropada çoxlu yəhudini öldürməsindən və anti-yəhudi hərəkətindən sonra gəldik.

- Yaxşı, nə üçün haqqınızı həmin Rusiyadan almırsınız, Rusiya hökumətindən, sizi öldürənlərdən? Onlar sizə borcludur, biz yox. Təsəvvür edin, əgər Livanda olsaydıq və bir yunan bizlərdən birini öldürsəydi, biz onun əvəzində Türkiyə türkünü öldürə bilərdik?!

Əbu Zəkan cəsarətlənmişdi. Səmir üçün daha yaxşı dəlil-sübut gətirmək istəyirdi:

- Biz gələndə burada heç kim yaşamırdı. Biz buranı dirçəltdik, sonra da onu geri aldıq.

Səmir öz-özlüyündə fikirləşdi ki, ola bilsin, Əbu Zəkan mənim fələstinlilərin və yəhudilərin sayını bilmədiyimi düşünür, ona görə də məni aldatmağa çalışır. Dedi:

- 1947-ci ildə yəhudilər az olduqları üçün kiçik ərazini onlara və böyük ərazini fələstinlilərə verdilər. Torpaq boş qalmışdısa, böyük ərazini sizə verərdilər, kiçik ərazini də fələstinlilərə. Hamısından vacib isə budur ki, 1948-ci ildə sionist hökuməti qurulanda 1917-ci ildən əvvəl və sonrakı yəhudilərin sayı cəmi 550 min nəfər idi.

Əbu Zəkana elə gəldi ki, Səmir bu qədər yara alması və zəifliyi ilə hələ ağlı yerindədirsə, belə cavab verirsə, deməli, onun beynində bizə kömək edəcək sözlər vardır. Ona görə də söhbətinə davam etdi:

- Cəmiyyətiniz çox idisə, nəyə görə az saylı adamların qarşısını ala bilmədiz?

Səmir dedi: - İngiltərə və Çexoslovakiya hökumətinin, ordusunun sizə verdiyi silahların bir hissəsini bizə versəydilər, İngiltərə ordusunun sizə etdiyi köməyin bir hissəsi bizə olunsaydı, indi siz müstəntiq kimi mənim qarşımda otura bilməzdiniz.

- Siz də Suriyadan silah alırsız, Misir Qurtuluş Ordusu var.

- Əvvəla, ordu İngiltərənin onlara verdiyi işə yaramayan silahları Qurtuluş Ordusuna verdi ki, onları sizin əlinizlə məhv etsin. Misir kralları, istər kral Fuad olsun, istərsə də kral Faruq fasid və İngiltərəyə bağlı adamlar idilər. İkincisi, Qurtuluş Ordusu ümumiyyətlə, heç bir təlim görməmiş misirli müsəlmanlardan ibarət bir qrup idi. O tərəfdən də Misir hökuməti onların əlindən xilas olmaq istəyirdi. Onlar heç necə və harada döyüşəcəklərini bilmirdilər.

Səmir yorulmuşdu. Əlləri bağlı, bədəni isə divardan çıxan iki dəmir parçasından asılmışdı. Buna baxmayaraq davam etdi:

- Suriyalı qüvvələr də kiçik bir birləşmə idi və ordu imkanlarına malik deyildilər. Onların köhnə tüfəngləri İngiltərə və Çexoslovakiyanın yeni pulemyotları qarşısında aciz idi. Sizin radar, quru, dəniz və hava qoruyucuları imkanlarınıza baxmayaraq, biz sizin ərazinizə girə bildik və əməliyyat həyata keçirdik. Siz bizim kiçik bir qrupumuzun qarşısını ala bilmədiz.

Son zərbəni vurmuşdu. Əbu Zəkan onun qarşısında geri çəkilmək istəmirdi:

- Xeyr. Siz adi bir qrup deyildiniz. Bir neçə nəfər də var idi. Dayaq olmadan bu işi etmək olarmı?

Səmir başa düşdü ki, Əbu Zəkan öz zəifliyini göstərməsinin qarşısını ala bilməyib. Qalibcəsinə dedi:

- Əgər bundan çox olsaydıq, sizi bu torpaqdan qovardıq.

- Mənim bu torpaqda ailəm var, qohumlarım var. Biz Şərqi Avropadan gəlmiş çoxlu adamlarıq.

- Nə vaxt gəlmisiz?

- Ailələrimiz Avropa və Rusiyada öldürüldükdən sonra qaçdıq, Fələstinə gəldik.

- Onda hamınız Avropaya qayıtmalısız.

Əbu Zəkan bu dəfə qəzəblə bağırdı:

- Əgər Avropaya qayıtmaq istəsəm, getməzdən əvvəl mütləq səni cəhənnəmə göndərəcəm.

Qırmızısaqqal bilirdi ki, Səmir məlumatsız şəkildə bu əməliyyata gəlməyib. Ona görə də bacardığı qədər onunla sərt davranırdı, əzməyə çalışırdı. Səmiri ən azından televiziya müsahibəsi verməyə razı salmaq, onun öz əleyhinə sənəd əldə etmək çox vacib idi.

Mövzunu dəyişdi: - Sizinlə olan qızı necə öldürdünüz? Siz o uşağı öldürdüz, tapança ilə başına atəş açdız.

Səmir də onun kimi alovlandı: - Bu uydurma nağılı kim sizə danışıb? Onu öz gülləələri ilə öldürüb, uşağın ölümünü bizim boynumuza atıb, özlərini xilas etmək istəyənlər?

- Biz sizin silahlarınızın güllələrini araşdırdıq. Sizin gülləniz idi.

- Mümkün deyil. Bu yalandır. Uşaq bizim arxa tərəfimizdə idi, daşların arasında. Sizin güllələriniz gəlirdi. Onun sığınmağa yeri yox idi. Sizin polisinizin gülləsi ona dəyib. Onun ölümünün bizə heç bir faydası yox idi.

- Sən bu cinayəti etiraf etməlisən, onu öldürdüyünü yazmalısan.

Səmir ah çəkdi, arxayınlıqla dedi:

- Mən öldürməmişəm və etiraf da etmirəm. Etiraf etməli bir şey yoxdur. O yazıq uşağı kimin öldürdüyü aydındır.

- Sənə nəyi etməyin, nəyi etməməyin lazım olduğunu deyən bizik. İndi də sənin həyatın bizim əlimizdədir. Biz təyin edirik nə yeyəsən, nə vaxt yatasan, harada yatasan, nə yazasan, nə yazmayasan.

- Mən etmədiyim işi yazmayacağam.

- Hər nə istəyirsən de, amma yazmalısan. Mən yazmıram deyə bilməzsən. Burada mən yoxdur. Əgər televiziya məsələsi kimi etirafdan qaça biləcəyini düşünürsənsə, səhv edirsən. Özünə yaxşı-yaxşı bax. Heç nəyi inkar edə bilməzsən.

Bunu deyib kağız-qələmi məhbusunun qarşısına qoydu:
- İndi hər şeyi geniş şəkildə yaz.

- Etmədiyim işi yazmayacağam.

# On ikinci məktub

Əziz Nail!

Yenə də mənəm, Səmir.

Səni sonuncu dəfə görməyimdən bəlkə də iki il ötür, bəlkə də də çox... Günlər gec gəlib keçir və gecələr... bilmirəm. Bəlkə də təqdir belədir ki, bu günləri və gecələri xəbərsiz keçirim; heç nə müəyyən olmadan, anlaşılmazlıqda; məlum olmayan gələcəkdə. Hər halda məhkəmənin keçirilməsini gözləməliyəm.

Əbu Zəkan, mən adını qırmızısaqqal qoyduğumu deyirəm... Qırmızısaqqalın kinosu yadına gəlir? Bir dəfə Ərdinc paşanın qəhvəxanasında baxırdıq. Sevdiyin aktyorun onda iştirak etdiyi Yapon kinosunu deyirəm. Əminəm ki, yadına düşəcək... Vəd edilmiş torpaq

haqqında danışmağı çox sevirdi. Elə həmin moizələri ilə başqa yəhudiləri də fələstinliləri öz yurdlarından çıxarmağa təşviq etdilər. Hətta çox dindar olduqlarını, bir qarışqanı da incitmədiklərini iddia edənlər, indi fələstinli qadın, kişi və uşaqların qarşısında dayanıb, gözlərini qırpmadan atəş açırlar.

Bir gün Əhdi-Ətiq kitabını mənim qarşımda açıb dedi: - Bax... burada yazılıb: "Allah Musaya dedi (2): "Bəni İsrailə əmr et və onlara de: Kənan torpağına girdikdə bu torpaq sizin mülkünüz olacaq, yəni Kənan torpağı sərhədi ilə birlikdə. (3) Sonra sizin cənub sərhədiniz Sina səhrasından Əduma tərəf olacaq. Sizin cənub sərhədiniz Duzlu dənizin axırından günçıxana tərəf. (4) Sizin sərhədiniz cənub tərəfdən Əqrəbəyyəm yoxuşundan keçəcək və Sinaya çatacaq. Onun axırı cənub tərəfə Qadeş Bərne səmtinə olacaq, Həsər Əddardan keçəcək və Əsəmunu əhatə edəcək. (5) Bu hədd Əsəmundan Misir vadisinə qədər uzanacaq və sonu dənizin yanında bitəcək."

Onlar Misirdən qovulduqdan sonra düşüncələrində çox xəyallar yaşadırlar. Biri də bu idi:

"O gündə Rəbb, İbrahim ilə əhd edib dedi: Misir çayından böyük çaya, yəni Fərat çayına qədər bu məmləkəti sənin nəslinə verdim."

İnanırsan, yəni bütün İordaniya, Suriya, Livan, Fələstin və İraqla Misirin bir hissəsi.

Əgər bunların qarşısı alınmasa, bütün Yaxın Şərqə iddiaçıdırlar. Qarşılarında dayanmasaq, irəlilədikləri kimi bir göz qırpımında bütün bu torpaqları alacaqlar və üstündən də bir stəkan su içəcəklər. İstismarçılar kimi. Gör, dünyada neçə ölkə Fransanın, İspaniyanın, Portuqaliyanın və İngiltərənin müstəmləkəsi altındadır...

Biz bu adamların və işğalçı hökumətlərin qarşısında dayanmalıyıq.

Ona görə də işğal edilmiş əraziləri onlar üçün cəhənnəmə çevirməliyik. Belə etməsək, bizi maşın-maşın, gəmi-gəmi bu torpaqlardan qovmalarını gözləməliyik. Kaş, sən yazıçı olasan, bütün bunları yazasan. Yazasan ki, hamı bilsin. Əvvəl bizimlə həmyaşıd yeniyetmələr, sonra da böyüklər.

Sənin üçün darıxıram.

Sənin dostun: Səmir Qintar
Mart 1980

# Edamı gözləyin

- Hakim gəlir, ayağa qalxın.

Nə Əhməd, nə də Səmir ayağa qalxmadı. Səmir dodaqaltı dedi: - İsrailli hakimin ayağına qalxan deyiləm.

Fotoqraflar müttəhimlərin etinasızlığından şəkil çəkdilər.

Onları çölə çıxartdılar ki, məhkəmə heyəti oturduqdan sonra içəri gətirsinlər. Çünki onların məhkəmə heyətinə görə ayağa qalxmayacaqlarına qətiyyətli olduqlarını anlamışdılar.

İçəri girəndə bir qadın gözünü onlara zilləyib qəzəblə qışqırdı. Səmir bu qadının təəssübkeş bir yəhudi olduğunu düşündü. Onu müttəhimlərin əleyhinə şəhadət vermək üçün çağırdıqda, Səmir onun Dani Haranın arvadı olduğunu bildi.

Üzü arıq və çox qəzəbli gözə çarpan qadın o gecənin hadisələrindən, əri və uşaqları ilə birgə yaşadığı evdən danışdı.

Danışdıqca böyük faciənin dərinliyi daha aşkara çıxırdı. Səmir yaxşı dinlədi. Qadın dedi: Güllə səsi eşitdikdən sonra mən qızımı götürüb, başqa yerlərdən daha təhlükəsiz hesab etdiyim yerə qaçdım. Neçə dəqiqə keçmişdi ki, hər yeri sükut bürüdü. Qızım ağlayırdı. Onun ağlamaq səsi bu qatillərin qulağına çata bilərdi. Onların ayaq səslərini və danışıqlarını eşidəndə qızımın ağzını tutdum ki, ağlamaq səsi onları bizə tərəf çəkməsin. Onlar getdikdən sonra əlimi qızımın ağzından götürdüm, amma o, artıq tərpənmirdi. Boğulmuşdu. Mən onu öz əllərimlə boğmuşdum.

Məhkəmə bir neçə saniyə sükuta qərq oldu. Səmir fikirləşirdi ki, qızcığaz və anasına güllə atmaq bir yana, hətta onun səsini eşitsəydi də heç nə etməzdi. Ona görə də Dani Haran qızını özü ilə aparmışdı ki, ona zərər yetirməsinlər. Ondan sipər kimi istifadə etmişdi.

Qadının ağlamaq səsi məhkəmənin sükutunu pozdu. Səmir düşündü ki, o, ağlamaqla qızının öldürülməsini onların boynuna atmaq və özünə haqq qazandırmaq istəyir. Lakin məhkəmə iki yaşlı qızın qətlində Səmir və yoldaşlarını günahlandırmadı.

Birinci, ikinci və üçüncü məhkəmə iclası bu şişirdilmiş hadisənin araşdırılmasına həsr olundu. Məhkəmə Səmir və Əhmədə iki yaşlı qızın qətlində bəraət qazandırdı.

Üçüncü iclas bitdikdən sonra camaatın arasından bir nəfər bağırdı:

- Edamı gözləyin, terrorçu canilər!

# Edam

Səhər vaxtı Səmir və Əhmədi həbsxanadan əlləri bağlı gətirəndən bəri Səmir özünü dəhşətli bir xəbərə hazırlamışdı. Hər ikisini pəncərəsi olmayan furqona mindirdilər. İki silahlı əsgər də onlarla birlikdə furqonda oturdu. Səmir yolda olduqları bu bir neçə dəqiqə ərzində Əhmədə baxırdı.

Səmir qızdırma hiss etdi. Bədəni dəmir əridici sobaya dönmüşdü. Yaraları hələ sağalmamışdı. Yol yerimək üçün köməyə ehtiyacı var idi. Furqon hər dəfə sürətazaldana düşdükdə ağır bir ağrı bədənini bürüyürdü.

Bir neçə dəqiqədən sonra furqondan endilər. Furqonun arxasında çoxlu müxbir və fotoqraf toplaşmışdı. İki əsgər Səmir və Əhmədi fotoqrafların aparatlarının yanıb-

sönməsindən xilas etdilər. Uca tavanlı salon Səmir, Əhməd və onları gətirən iki əsgərin girdikləri binanın girişi idi. Foyedən keçib mübahisə gedən salona girdilər. Onların salona girişi ilə mübahisə böyük səs-küyə çevrildi.

Səmir məhkəmə salonunda toplaşmış qəzəbli adamların üzünə baxdı. İşarə barmaqları ona və Əhmədə tərəf tuşlanmışdı:

- Bu gün cəhənnəmə gedirsiz...

- Bu gün edam olursuz...

- Bu gün sizin ölüm gününüzdür...

Bir an dayandı və qışqırdı: - Biz sizi öldürmək üçün buraya gəlmişik. Yenə də sizi cəhənnəmə göndərəcəyik.

Səmirin yanındakı əsgər dirsəyi ilə bərk onun böyrünə vurdu. Bir neçə dəqiqə nəfəsi kəsildi. Sonra başını yuxarı qaldırdı və yenə qışqırdı:

- Biz də olmasaq, sizi cəhənnəmə göndərəcək başqaları var.

Bu dəfə əsgər onun ağzını tutdu.

Məhkəmənin sədri içəri girdi. Hamı ayağa qalxdı. Salon sükuta qərq oldu. Sədr ittihamnaməni oxudu. Vərəqi masanın üzərinə qoyub, onlar üçün təyin edilmiş vəkilə işarə etdi.

Vəkil Süleyman ayağa qalxıb ürkək səslə yazdığı kağızın üzündən oxudu: Cənab aliləri, hörmətli katiblər... Hörmətli məhkəmədən Səmir Qintar və Əhməd Əbrəs üçün mərhəmət və güzəşt istəyirəm.

Səmir başını yuxarı qaldırıb qışqırdı: - Səsini kəs, axmaq adam! Biz məhkəmədən heç nə istəmirik.

Başını döndərib məhkəmənin sədrinə dedi: - Bizim üçün heç nə əhəmiyyətli deyil. Əsas odur ki, biz indi buradayıq və işimizi də yaxşıca yerinə yetirmişik. Bunu

bilin ki, bu insanların haqlarını alacaqları və öz ölkələrinə qayıdacaqları gün gələcək.

Hakim çəkicini masaya döydü: - Sizin danışmağa icazəniz yoxdur. Bu məhkəmə iclasıdır və qətiyyən siyasi deyil. Bundan ayrı bir sözünüz varsa, deyin!

Səmir çox çətinliklə ayağa qalxıb dedi:

- Bizim camaatımız qayıdacaq və qəsbkar hökumətləri devirəcək.

Hakim yenidən çəkicini masaya döydü. Qızılı rəngli bir kağızın üzərinə hakimin adı yazılmışdı: Abraham Freydmən.

Hakim Freydmən üzünü Əhməd Əbrəsə tutub dedi: - Sizin sözünüz varmı?

Əhməd ayağa qalxıb dedi:

- Səmir mənim ürək sözlərimi dedi.

O gecə Nahariyada baş verənlərin hamısının fərqli adamlar tərəfindən danışılması bir neçə saat çəkdi.

Şəhadət vermək üçün məhkəmədə əlli nəfər iştirak edirdi. Hamısı işarə barmağını Səmir və Əhmədə tərəf uzatmışdı. Yarım saatlıq fasilədən sonra məhkəmə son hökmü elan etdi.

Hakim Freydmən dedi: - Xanım prokurora ittiham aktını oxuduğu üçün təşəkkür edirəm və şahidlərə də təşəkkürümü bildirirəm. Əsas şübhəli şəxs məhkəmənin əvvəlindən özü özünü müdafiə etməyə çalışdı. Cənab Qintar, məhkəmə qarşısında özünü müdafiə etmək üçün son sözün varmı?

Səmir 1953-cü il hadisələri və Deyr Yasin əhalisinin qətliam olunması haqda danışaraq dedi: - 1956-cı ildə də bu cinayətlər Kəfr Qasimdə baş verdi. İsrail ordusunun Livanda dəfələrlə və dəfələrlə şəhərləri bombalamaqla cinayətlər törətdiyini bir kəs bilirmi?...

Hakim soyuqqanlıqla ona öz sözünü bitirməsinə icazə verdi. Məhkəmədə iştirak edənlər zəmzəmə, sonra isə söyüşlə səslərini qaldırdılar. Hakim çəkicini masaya döyəclədi. Hamı sakit oldu. Səmir davam etdi:

- Biz bu əməliyyatı etdik ki, öz torpaqlarından köçkün düşmüş və tüfəng gücünə qovulmuş xalqa öz yurduna qayıtmaq üçün kömək edək. Biz nə pul almışıq, nə də şöhrət ardıncayıq.

Nəfəsini dərdi, bədəninin ağrılarına hakim olmağa çalışdı. Dedi:

- Amma Dani Haran barədə; biz onu öldürmək niyyətində deyildik, onu Livana aparıb livanlı əsirlərlə dəyişmək istəyirdik. Qızını özü ilə aparmamağı nə qədər israr etsək də, qəbul etmədi. Öz canını xilas etmək istəyirdi. O gecə bizim arxamız qıza tərəf idi. Ona necə atəş aça bilərik? Əgər güllələri araşdırsanız, bizim silahlarımızdan atılmadığını görəcəksiniz. Biz Dani Haranın qızının qətlinin məsuliyyətini qəbul etmirik. Onun qətlinin məsuliyyəti İsrail polisinin üzərinə düşür.

Fasilədən bir neçə dəqiqə sonra hakim Freydmən ayağa qalxdı və hökmü oxudu:

- Əsas müttəhim, Səmir Qintar. Professor Dani Haranın evinə silahlı hücum təşkil etdiyi üçün 5 dəfə ömürlük, 547 il, altı aya bərabər həbs cəzasına; ikinci sırada təqsirləndirilən şəxs Əhməd Səid Əbrəs də 5 nəfər israilli hərbçini qətlə yetirdiyi üçün 5 dəfə ömürlük həbsə və müəyyən şəxslərə yetirdiyi xəsarətlərə və ümumi əmlaka vurduğu zərərlərə görə 47 il həbs cəzasına məhkum olur.

Səmir bir ah çəkdi, Əhməd Əbrəsə dedi: - Allaha şükür olsun ki, qız uşağını bizim öldürmədiyimiz onlara sübuta yetdi.

Edama məhkum olmadığı üçün sevinirdi. Özünün və Əhmədin edam olunmayacağı barədə əmin olduqdan sonra ucadan qışqırdı: Cənab sədr, mən 547 il həbsi qəbul edirəm, amma o altı ayı, xeyr. Əmr edin, biz möhürün pulunu və vergini də ödəyək...

Hakim çəkici masaya döyəcləyib bağırdı: Bu müttəhimi məhkəmədən çölə aparın.

Məhkəmə zalında mühabisələr qızışdı. Bir dəstə bağırırdı:

- Bu adam edam olunmalıdır, öldürün...

- Onu cəhənnəmə göndərin...

Ömürlük həbs, qətiyyən, ədalətli deyil...

Bir neçə dəqiqə sonra Səmiri məhkəməyə qaytardılar. Hakim Freydmən masanın üzərinə çırpdı: İştirakçıların, müxbirlərin, hökumət nümayəndələrinin, prokurorun və müttəhimlərin diqqətinə çatdırıram ki, 547 il cəzaya əlavə olunmuş həbs, İsrail torpağına qeyri-qanuni girməyin cəzasıdır.

Səmir ucadan dedi: - Gələn dəfə gəlmək istəyəndə Naquradan icazə alaram....

Salonda toplaşanların etiraz səsləri hakim Freydməni əsəbləşdirdi. Çəkici masaya döyəclədi: Məhkəmədə nizam-intizama riayət edin.

Səmir dedi: - Cənab hakim, mənim bir sualım var. Siz bizi 547 il həbs cəzasına məhkum etmisiz, İsrail dövlətinin o vaxta kimi ayaqda qala biləcəyinə əminsiz?

Hakim Freydmən bu dəfə daha sərt tonda dedi:

Bu həyasız gənci çölə aparın. Daha onun üzünü görmək istəmirəm.

# Bağlanmış qovluq

Əziz Nail!

Yenə mənəm, sənin dostun.

Demək olar ki, dar ağacına qədər getdim və qayıtdım. Nə mən, nə də Əhməd Əbrəsə edam hökmü kəsmədilər. İnanırsan? Həyat bizim üzümüzə güldü. Bizi həbs edəndə edam hökmünün çıxarılması qanunu qəbul olmaq üzrə idi. O vaxta kimi İsrail məhkəmələri Avropa məhkəmələrini izləyərək müttəhim üçün edam hökmü çıxarmırdılar. Bizi həbs edəndən sonra bu qanun İsrail knesseti tərəfindən qəbul oldu.

Edam hökmü qəbul olduqdan sonra İsrail dövləti bizi hərbi məhkəməyə göndərmək istəyirdi ki, tez bir zamanda edam olaq. Çünki orada çox asanlıqla edam hökmü verə bilərdilər. Ona görə də, Rafail İtan bizim qovluğumuzu hərbi məhkəməyə göndərməyə səy edirdi. Amma İsrailin dini dairələri edam hökmünə qarşı idilər. Hökumətlə dini rəhbərlər arasında bu işdə fikir ayrılığı yarandığı üçün bizim edam hökmümüz ləğv edildi və hakim sonra bizə ömürlük həbs verdi. İnanırsan? Hətta, ittihamnamədə də bizim üçün edam hökmü istənilmişdi.

Ardını da özün yaxşı bilirsən. Həm qəzetlər bizim məhkəməmiz haqda yazdı, həm də radio və televiziya yayımladı.

Həqiqət, mənim məktubumun həmin sətirləri və yayımlanan xəbərlər arasında gizlənib. Kaş, bir gün mənim yazıçı dostum, yəni sən onu açıqlamaq fikrinə düşəsən.

Səmir Qintar
Yanvar 1981

# Qəzet

Kozo Okamoto danışmırdı. Depressiyaya düşmüş kimi görünürdü. O və digər iki yaponiyalı Təl-Əvivin Ben Qurion aeroportunda əməliyyat həyata keçirmiş və 25 nəfəri öldürmüşdülər. 71 nəfər də yaralanmışdı. Onlar bu əməliyyatı Deyr Yasin qırğınının əvəzi olaraq həyata keçirmişdilər. İki silahdaşı aeroportda öldürülmüş, özü isə ömürlük həbsə məhkum olmuşdu.

Səmir hər gün ona baş çəkirdi və öz yeməyini onunla bölürdü. Səmirin fikrincə, o, qəhrəman idi. On yaşında olarkən, böyük bir əməliyyat hazırlamışdı.

Səmir başqalarına da baxırdı: hər gün həbsxanaya gələn və camaşırxananın məsul şəxsi olan ərəb fəhləyə; gürcüstanlı kişiyə; Azadlıq Hərəkatında olan silahdaşlarına...

Bir gün gürcü kişi çarpayının üstündə oturmuşdu və qəzet oxuyurdu. Səmir ona yaxınlaşıb ondan təzə xəbərlərdən soruşdu. Kişi ona baxıb dedi: Qamarcubat...

Səmir onun dilini başa düşmədi. Öz-özünə dedi: Faydası yoxdur. Bunun da Kozo Okamoto ilə heç fərqi yoxdur. O, heç nə danışmır, bunun da dilini heç kim başa düşmür.

Ona əl yellədi. Kişi qəzetdə qərq olmuşdu. Səmir birdən qəzetdə tanış bir şəkil gördü.

Camaşırxanaya tərəf qaçdı. Yalvar-yaxar edib camaşırxananın fəhləsini gürcü kişinin qaldığı kameraya apardı. Gürcü yəhudi dilində danışa bilirdi və ərəb fəhlə də yəhudi dilini başa düşürdü.

Səmir şəkili göstərib dedi: - Ona de ki, bu kişi barədə orada nə yazılıb?

Gürcü kişi bütün xəbəri əvvəldən axıradək oxudu. Camaşırxana fəhləsi də onun hamısını Səmirə tərcümə etdi. Dani Haran İsrailin görkəmli fiziki və bu ölkənin gələcək ümidlərindən idi. Yaşının az olmasına baxmayaraq, nüvə sahəsi üzrə milli komitənin üzvü ola bilmişdi. Milli nüvə komitəsi İsrailin nüvə elm və texnologiyasının qərar və idarəçiliyi üzrə mühüm mərkəzlərdən biri idi.

İsrailin baş naziri Menaxem Begin bu cavan alimin ölümündən çox kədərlənmiş, onun dəfn mərasimində geniş nitq söyləmiş və Dani Haranın yüksək məqamından danışmışdı. Çıxışında demişdi: "Bu alimin qatilini elə cəzalandıracağıq ki, şeytanın da ağlına gəlməz. Onu ağır cəza gözləyir." Bundan sonra Dani Haranın cənazəsi üstündə çox ağlayıb göz yaşları tökmüşdü.

Səmir camaşırxana fəhləsini qucaqlayıb öpdü. Dedi: - Sahildə bağırıb-çığıranda alim olduğu qətiyyən məlum deyildi.... Çox sevinirəm, çox sevinirəm... Biz onlara çox ağır zərbə vurmuşuq.

Bir neçə aydan sonra xəbər yayıldı ki, tanınmış bir jurnalist həbsxanaya gələcək və onlardan müsahibə alacaq. O gün Səmirin gözü yolda qalmışdı. Beş nəfər rəsmi geyimdə həbsxananın rəisi və bir neçə mühafizəçi ilə birlikdə əsas koridora girdilər. Səmir oranın ən az yaşlı məhbusu idi. Qadın jurnalist ona baxıb dedi: - Mən Barbara Valterz, ABC telekanalındanam.

Tərcüməçi onun sözlərini ərəbcə tərcümə etdi.

Səmir dedi: - Mən sizə müsahibə verərəm, bu şərtlə ki, hamısını efirə verəsiniz.

Barbara Valterz bir az duruxdu, sonra başını tərpədib soruşdu:

- Yəqin ki, Kemp-Devid müqaviləsi haqqında eşitmisən?

Səmir dedi: - Ənvər Sadat sülhü, bu bir xəyanətdir. Əmin olun ki, bir gün xalq onun bu xəyanətinin cavabını verəcək.

Qadın jurnalist: - Misir prezidenti söz verib ki, bundan sonra müharibə olmayacaq. Bunu qəbul edirsən?

- Heç kimin haqqı yoxdur ki, bizim torpağımızda bizim həyatımız üçün qərar versin. Biz bu torpaqda yaşayırıq və yalnız özümüz gələcəyimiz barədə qərar çıxarmalıyıq.

- Nə üçün mülki şəxsləri öldürdün?

- Mülki şəxslər? İsraillilər mülki şəxslər deyil, onlar xaricdən gəlmiş və bizim torpaqları işğal etmiş işğalçılardır. Hər biri fələstinli fədailər üçün bir hədəfdir.

- Həbsdən azad olsan, nə edəcəksən?

- Qayıdacağam, bütün gücümlə ayrı bir əməliyyata başçılıq edəcəyəm.

Jurnalist əsəbləşdi və operatora çəkilişi dayandırmaq işarəsi verdi. Projektorlar söndü.

Bir neçə ay sonra Səmirin əlinə bir qəzet çatdı ki, orada qəzəblənmiş baş nazirin şəkli dərc olmuşdu və onunla üzbəüz Səmirin xanım Valterz ilə müsahibəsinə aid şəkil yer almışdı. Şəkilin ortasındakı başlıqda Səmirə işarə olmuşdu: “Baş naziri qəzəbləndirən şəxs!”

Səmir maraqla xəbəri oxudu. ABC müxbiri sözünə əməl etmiş və müsahibəni tam vermişdi. Xəbərin başlığı da belə idi: “İsrail əsirliyindəki gənc.”

Bir neçə sətr aşağıda ayrıca mövzuda yazmışdı: Menaxem Begin Lod şəhərindəki həyəcanlı çıxışında bu cavan terrorçunun sözlərinə nifrət etdiyini bildirdi və onu dəli adlandırdı.

Səmir yumruqlarını düyünləyib dedi: Dəli?! Hazıram dəli olum və hər gün israilliləri qəzəbləndirim.

Əhməd Bərəs onun yanında dayanıb dedi: Azadlıq Hərəkatı bizi unutmayıb.

Səmir təəccüblə baxıb dedi: - Necə?

- Yadına gəlir, livanlı mübarizlərdən biri delta ilə İsrail ərazisinə girmişdi?

- Hə, əməliyyatı da uğurlu olmuşdu.

- Xəbər çatıb ki, iki nəfər bizi qaçırmaq üçün hava şarı ilə biz olan həbsxanaya tərəf gəlib. İnanırsan?!

Səmir başını tərpətdi.

Əhməd dedi: - Təəssüf ki, havada onlara atəş açıblar və təqibdən sonra hər ikisi şəhid olub.

Səmir onlar üçün dua etdi- Allah rəhmət etsin!

# Əbyədən məktub

Artıq mavi səmanı və günəşin qürub etməsini düşünməyə bilmirdi. Başında azadlıq röyasının keçməsini istəyirdi; həmişə, hər an, hətta ən çətin vaxtlarda, hətta bacı-qardaşları üçün çox darıxdığı, analığı Səham əş-Şəar üçün darıxdığı, atasının narahatlığı və təşvişi üçün darıxdığı bir vaxtlar. Ürəyi istəyirdi ki, atası yanında olsun, onun üçün danışsın, nəsihət etsin. Ürəyi istəyirdi ki, Səna onun əlini tutub özü ilə təpənin üstünə aparsın; hətta bir il böyük olsa da, ana kimi qardaşını qoruyan böyük bacı.

Məktub yazdı, yenə məktub yazdı. O qədər yazdı ki, axırda evdən cavab gəldi. İndi tam əmin oldu ki, Əbu Zəkanın sözləri yalan imiş. Ailəsinin sağ olmasından arxayın oldu. Neçə illər məktub yazdı. Bacısı Sənaya,

qardaşlarına, bacılarına; Səmir evdən ayrılanda cəmi bir neçə aylıq olan qardaşına.

Yazdı və yazdı, aldıqları məktubları dəfələrlə oxudu. Çətin idi, amma xəlvətdə ağlayırdı və ailəsi üçün darıxmışdı.

Beer Səb həbsxanasına köçürülməsindən çox keçməmişdi ki, ilk məktub gəlib çatdı. Məktubuna cavab almasına çox sevinirdi. Bir tərəfdən də sətirləri çox oxuduqca, dəhşətli yükün ağırlığı sinəsini daha çox sıxırdı.

Səmirin edam olunması haqda yalan xəbər ailəni çox üzmüşdü. Səna qardaşının ölüm şayiəsini eşidəndə insult keçirmişdi və bədəni iflic olmuşdu. O qədər ayrılıq və intizar əzabı çəkmişdi ki, ölüm başının üstünü almış və onu özü ilə aparmışdı.

İndi Səmirin bədəni iflic olmuşdu. Ruhunu bürümüş ağrı və əzabdan xilas ola bilmirdi. Kamera və həbsxana yoldaşları bir-bir ona başsağlığı verməyə gəldilər.

Səmir özündən asılı olmayaraq sözlər deyir, göz yaşı tökür və ucadan ağlayırdı: Heç kim bilmir Səna məni nə qədər istəyirdi. Bəlkə özüm də başa düşmədim ki, o, nə qədər balaca qardaşının eşqinin əsiridir. Heç kim mənim bu məktubu oxuyanda nə ağrı çəkdiyimi dərk edə bilməz. Bu, İsraili diz çökdürən, özü isə məhkəmədə belə diz çökməyən inadkar cavanın vəziyyətidir. İndi isə qəmdən dizlərini qucaqlayıb və bacısının matəmində ağlayır.

Həbsxana meydanında Səmirin bacısı üçün xatirə mərasimi keçirdilər.

Səmir öz-özünə deyirdi: Əgər mən həbsə düşməsəydim, belə bir dərdə də düçar olmazdım.

Səmir dəfələrlə və dəfələrlə məktubu oxudu, hər dəfə göz yaşlarını axıtdı. Məktubu atası yazmışdı və demişdi:

Sənа sənin ayrılığına və ömürlük əsirliyinə dözə bilmədi; bir daha görüşmək ümidi olmayan bir əsirlik.

# Əbədiyyət və ümid

Əziz dostum Nail!

Sənin üçün neçə məktub göndərdim. Müxtəlif həbsxanaların nəmindən və toz-torpağından sağ çıxmış məktublar. Bilmirəm sənin əlinə çatıb, ya yox. Güman edirəm ki, məktubları oxumusan. Ailəmdən bir məktub aldım, itirdiyim bütün ümidlərimi mənə qaytardı. Elə düşünürdüm ki, kəndimiz Əbyə bombalanarkən onlar da ölüblər. Amma bütün xəbərlər yalan imiş. Onlar mənim ruhumu sındırmaq istəyirmiş. Hamı sağ-salamatdır; bacım Sənadan başqa hamı. Onun qəmi məni üzdü... Bilmirəm canımı bürümüş bu qəm-qüssəni necə bəyan edim. Bəlkə sən mənim həyatımı qələmə aldığın yazılarında sətir-sətir onu bəyan edə biləsən. Bəlkə kimsə oxuduqda mənim kədərimi dərk etdi, bilmirəm.

Ötən il yox, ondan əvvəlki ilin axırlarında, yəni 1980-cı ilin noyabr, ya dekabr ayında Gənclər Cəbhəsi, Fəth və Fələstin İnqilabının təsis edilməsini qeyd etdik. Həbsxanada vəlvələ düşmüşdü. Ona görə də məhbuslara qarşı sərt qaydaları artırdılar. Bizim həbsxananın rəisi Alberti götürüb, İstal Fled adında qəddar cəlladın birisini onun yerinə gətirdilər. O, 1969-cu ildə bir məhbusu öz əlləri ilə öldürmüşdü. Hamı ondan qorxurdu. Bizim həbsxanaya girəndə məhbusları məcbur etdi ki, hər vaxt həyətə girsə, onun ayağına qalxsınlar. Birinci dəfə gələndə heç kəs onu saymadı. Ona görə də köhnə məhbuslardan on nəfəri, o cümlədən veteran Əbu Cəyabı təkadamlıq kameraya atdı. Sonra bizi komandirlər, İslam camaatı və

sadə əsirlər olaraq üç dəstəyə böldü. Yemək payını azaltdı, mənəvi təzyiqləri artırdı. İstirahət vaxtımız azaldı. Hər şeyin təbii vaxtı pozulmuşdu. Ona görə də ruhumuz olduqca əzab çəkirdi. Kitabxananın qapısı bağlandı və biz kitab oxumaqdan məhrum olduq. Hətta kağız-qələm də yoxa çıxdı. Bu səbəbdən mən məktublarımı zehnimdə yazırdım, xəyalımda sənin üçün, yaxud ailəm üçün göndərirdim.

İndi ürəyim dərin kədərlə doludur. Əminəm ki, sən də Səbra və Şətila düşərgəsində baş verənlərə görə narahatsan. Qurban bayramı idi. Bu, iyirminci əsrin ən dəhşətli faciəsidir. Kətaib Partiyası livanlı qüvvələrin köməyi ilə Səbra və Şətila düşərgəsini mühasirəyə alıblar, düşərgənin ətrafında yerləşən İsrail tanklarının dəstəyi ilə bu faciəli və qəddar cinayəti törədiblər. Həbsxanaya gəlib çatan xəbərlər çox dəhşətlidir. Bu cinayətin ən az rəsmi rəqəmi səkkiz yüz fələstinli qadın, uşaq və qocadır. Məhbuslar hamısı göz yaşı tökdü və psixoloji sıxıntıya düşdü. Bilmirəm, bu barədə nə deyim. Bu cinayət müharibə naziri Ariel Şaron və Bəşir Cuməylin qüvvələrinin adına yazıldı.

Həbs edilmiş fələstinli mübarizlərdən birinin sözləri bizim hamımızı məyus etdi. Demişdi ki, müqavimət qruplarının komandirləri təslim olurlar. Müsəlmanlar öz evlərində öldürülür, təhqir olunur və Livan İsraildən asılı bir ölkəyə çevrilib. Bu ölkənin bir çox ərazilərini İsrail işğal edib, sağdan, soldan və arxadan bizə xəncərlər vurulur.

Bu qədər uğursuzluq bizi tamamilə məyus etmişdi. Biz ən ağır müsibətlə qarşılaşmışdıq. Yasir Ərəfat İsrailin Beyrutdan çıxması qarşısında Beyrutda əsir olan bir pilot və iki əsgəri, Bürcül-Bəracinədə bir əsiri və beş israilli

əsgərin meyitini İsrailə qaytardı. Yəni son güllələr. Biz özümüzün o əsirlərlə dəyişdiriləcəyinə ümid edirdik. Lakin onları İsrailin Beyrutdan çıxması qarşılığında itirdilər. Bunun mənası odur ki, biz ömürlük, əbədi olaraq həbsdə qalacağıq. Ömürlük, doğrudan ömürlükdür. Bizim azadlığımız əbədiyyətə qovuşub. Amma ürəyimizdə bir ümid var. Fələstin camaatından bir neçə məktub bizə çatmışdır ki, bu məktublar bizi aydın gələcəyə ümidvar edir. Ümidvaram ki, sənin də məktubların bir-bir mənə gəlib çatacaq.

Sənin dostun: Səmir Qintar
Dekabr 1982

Doğrusu, sən köhnə dostumdan bir xahişim var. Mənə və digər əsirlər üçün bu il çox çətin və acı il oldu. Amma bir məsələ başqalarından daha narahat edici idi. Bizim məhbus yoldaşlarımızdan bəzilərinin vəziyyəti bizdən çox pisdir. Bilirsən... unudulmaqdan pis heç nə yoxdur. Mən sevinirəm ki, hələ unudulmamışam. Amma bizim həbsxanadakı Misir müqavimətinin üzvləri unudulmaq üzrədir. Məsələ belədir ki, Misir ordusunun kəşfiyyatı Sina səhrasının sakinləri olan və SƏVAGƏ adı ilə tanınan misirli gənclərə təlim veriblər. Onlar on il bundan əvvəl İsrail əleyhinə əməliyyat keçirirdilər. Bu qüvvələrdən on nəfəri neçə il bundan əvvəl həbs olunub. Kemp-Devid müqaviləsi imzalanana qədər onların vəziyyəti yaxşı idi. Çünki Misir kəşfiyyatı və ordusu onlara dəstək olurdu. Amma müqavilədən sonra tək qaldılar. Yalnız bu yaxınlarda Misir konsulu onlarla görüşdü. İndi daha o da gedib, yoxdur və onların azad olunmaq üçün heç ümidi qalmayıb. Səndən xahişim budur ki, əgər bacarsan, onların səsini Misir xalqının qulağına çatdır.

# Achille Lauro

Səmir dərindən nəfəs aldı, həbsxananın kiçik həyətində məhbusların addım səslərinin yerinə albatrosların səsini, nizamla və ardıcıl gələn dəniz dalğalarının səsini, limanlarda yan alan gəmilərin siqnal səsini, ondan yuxudan oyanıb məktəbə getməsini istəyən anasının səsini eşitməyi arzuladı, sanki portağal və mandarin kollarının arxasında gizlənmiş, amma nə səsi eşidilən, nə də çin-çin və küləkdə rəqs edən ətəyi görünən bacısı Sənanın səsini eşitmək istədi.

Ah çəkdi, əlini kürəyində daraqladı. Özlüyündə fikirləşdi ki, bu illər ərzində nə qədər təcrübələr kəsb edə bilərdi, lakin indi onların heç biri yoxdur və nə qədər təcrübələri vardır ki, əgər həbsxanada olmasaydı, ömrü boyu onlara gülümsəyə bilməzdi.

Bu günə kimi ömrünün altı ili həbsxanada keçib və 23 yaşı var; sürücülük vəsiqəsi ala bilərdi, dostları ilə Beyrutun yaylaqlarını gəzə bilərdi, atasının adını qeyd etdirdiyi universitetdə öz sevdiyi ixtisas üzrə diplom ala bilərdi, ailə qura bilərdi və sair.

Səd Məsrur onun fikrini dağıtdı: - Hardasan? Hər yeri sənin ardınca axtarmışam.

Səmir sual dolu baxışla onu baxdı. Səd dedi:

- Yenə sujetə çevrilmisən Səmir! Bir gəl gör; hələ də səni sevirlər.

Səmir təəccüblə soruşdu:

- Nə olub?

Səd onun əlindən tutub xəbərlərin səsi səsucaldandan yayılan salona apardı.

Əbul-Abbasın komandanlığı ilə Azadlıq Cəbhəsi Aralıq dənizində İtaliyanın Akulle Lauro gəmisini və onun ekipajını girov götürüb. Akulle Lauro gəmisinin 550 sərnişini olub. Hamısı turist olan bu sərnişinlər tətil günlərini keçirmək üçün Yunanıstan və Livan sahillərindən, Egey dənizindən Misirə yola düşmüşdülər. Yolun ortasında Əbul-Abbasın qrupu gəminin idarəçiliyini ələ keçirdiklərini elan etmişdi. Diktor bu hadisəni faciə və utancverici girovgötürmə əməliyyatı adlandırırdı. Səmir öz adını Əbul-Abbasın azad edilməsini tələb etdiyi əsirlər arasında eşitdikdə sevinc və kədər hiss etdi. Hər iki hiss birlikdə ona üz gətirmişdi. Ürəyi təşvişdə idi. Sanki bir səs

ona deyirdi: Ümidvar olma. Başqa bir səs isə fəryad edirdi: Qol-qanadını aç, oğlan! Evinə pərvaz edirsən.

Həm də sevinirdi ki, hələ qrupları fəaliyyətini dayandırmayıb. Sevinirdi ki, Fələstinin tam azad olacağı günə kimi bu səylər davam edəcək. Təbəssüm edib, xəbərin ardına qulaq asdı. İtaliya hökumətinin İsrailin baş naziri Şimon Peresdən nə qədər ki, pis bir hadisə baş verməyib, Səmiri azad etməyi rəsmi şəkildə tələb etməsini eşidəndə daha çox sevindi.

Bir neçə gün sonra xəbər gəldi ki, İsrailin baş naziri Şimon Peres əsirlərin dəyişdirilməsi ilə bağlı Səmirin dosyesini işə salıb. Onlar Səmir və digər əlli nəfər məhbusu gəminin göyərtəsinə aparmağı qərara almışdılar. Amerikalılar və israillilər bu işi təmkinlə və tələsmədən irəli aparırdılar ki, bu iş üçün daha çox vaxt qazana və daha yaxşı yol tapa bilsinlər.

Gəmi və girovlar üç gün dənizin ortasında sərgərdan qalmışdı. Qrupun üzvləri israillilərin vaxt tələf etdiyini gördükdə, amerikalı bir yəhudini öldürdülər. Ona görə də Yasir Ərəfat irəli çıxıb vasitəçilik etdi ki, hadisə danışıqlar yolu ilə həllini tapsın. Ərəfat Əbul-Abbası görüşə çağırdı. Nəhayət, gəmi Misirin Səid limanında lövbər saldı. Girovlar hamısı azad oldu, əsir dəyişdirilməsi isə baş tutmadı.

Səmir öz-özünə dedi: Gərək mənfi çağırışı dinləyəydim, ümidvar olmayaydım. Bir az sonra özünə ümid verdi ki, tezliklə onu Əbyəyə qaytaracaq bir hadisə baş verəcək, Beyruta gedəcək və azad dünyada nəfəs alacaq, Punçu sahilinin qumları üzərində addımlayacaq, Şibli əmidən qozlu dondurma alacaq. Yeddi il həbs onun üçün çətin keçmişdi, amma insan övladı öyrəşir. Onda narahat olmağa dəyməz.

Səd Məsrur yanında dayanmışdı. Səmir başını ona tərəf döndərdi. Səd başa düşdü ki, onun başını döndərməsinin mənası “təzə xəbər var?” deməkdir.

Səd dedi: - Əbul-Abbas və qrupu Tunisə gedərkən Amerika təyyarəsi onların olduğu təyyarəni öz yolunu dəyişməyə məcbur edib. Təyyarə Sigonella hərbi bazasına enib.

Səmir gülümsündü: - Yəqin ki, amerikalılara aiddir.

Səd başını tərpətdi: - Amerikalılar qrupun üzvlərini həbs və mühakimə etmək istəyirdilər, lakin İtaliya dövləti deyib ki, ağrımayan başa dəsmal bağlamazlar.

Səmir dedi: - Yəni özünü bu hadisə ilə məşğul etmək istəməyib. Yəqin ki, müqavimət qruplarından qorxur.

Səd dedi: - Hamı bizdən qorxur. Əbul-Abbas Yuqoslaviyaya gedib. Qalanları da İtaliyadadır. Mənə elə gəlir ki, orada mühakimə olunacaqlar.

Səmir dodağını dişlədi. Öz məhkəməsi yadına düşdü. Dodağının altında dedi: - Özləri ölçüb, özləri biçirlər. Allah bilir, neçə il həbs çəkəcəklər.

# Bir dost üçün yeni bir fikir

Əziz Nail!

Neçə vaxtdır ki, məktub yazmaq üçün əlim qələmə gəlmir. Doğrusu, fikrim-zikrim məktub yazmaqdan daha üstün bir şey olub. Biz digər məhbuslarla birlikdə böyük bir iş görmüşük. Bəlkə onun bir guşəsini sənə göndərdim. Əminəm ki, bundan xoşun gələcək.

Əvvəl bunu deyim ki, ola bilsin, radiodan, televiziyadan mənim Akulle Lauro gəmisinin girovları ilə dəyişdirilməyimin uğursuz olduğunu eşitmiş olarsan. Bu məsələ məni məyus etmədi, əksinə mənim, Xəlil Rainin –

qaçmağı uğursuz olanı deyirəm, yadına gəlir?– və həbsxananın hörmətli şəxslərindən olan Əbdür-Rəzzaqın Əsqəlan həbsxanasına sürgün olunmağımıza bais oldu. Oranın nəzarətçisi yox idi, istədikləri bəlanı başımıza gətirə bilərdilər. Biri bu idi ki, qəzet, televiziya, radio, hətta geyimlərimizi də müsadirə etmişdilər. Üstəlik, gündə üç dəfə həbsxananın rəisinin qarşısında ayağa qalxmağa və hörmət göstərməyə məcbur idik. Bu hərəkətləri qəbul edə bilmirəm. Biz aclıq aksiyası həddinə çatdıq. Bu, böyük etiraz deməkdir. Etirazımız çox tez nəticə verdi, bizi Nəfxə həbsxanasına göndərdilər. Hər şeyi bizə qaytardılar və Əsirlər Milli Komitəsi yenidən təşəbbüsü ələ aldı. Deməli, bizim gücümüzü rəsmi olaraq tanıdılar. İndi isə bir iş görmək zamanıdır.

Biz həbsxanada jurnal yaymaq barədə qərara gəldik. Onun da mövzusu Fələstin və Livanın müasir tarixi, bu iki ölkədə baş verən hadisələr idi. Bir neçə nəfər redaksiya heyəti idi. Mən də redaksiya heyətinin üzvü idim. Xəbər, məqalə, əlyazma, şeir və sair yazılar biz bir neçə nəfəri hər ay jurnalı yaymağa rəğbətləndirən və təşviq edən işlər idi.

Jurnalı çap etmək bizim üçün mümkün deyildi. Ona görə də, məqalə və digər yazıları hazırladıqdan sonra jurnalın məsul şəxsinə verirdik, mövzulara ayrılırdı, mündəricat yazılırdı, səliqəyə salınırdı, sonra bir neçə məhbus onun üzünü köçürürdü. Bundan sonra bir neçə əlyazma jurnalımız olurdu ki, hər bölmə və kamerada ondan istifadə olunurdu. Mən də bir neçə məqalə yazdım və jurnalda onlardan istifadə olundu. Həyəcanlı bir iş idi. Öz fikrini yaymaq kimi bir işdir. Bu, mənim üçün çox yaxşı təcrübə idi, hələ də ondan istifadə edirəm. Necə? Deyirəm. Hər gün təzə hadisə və təhlil barədə

düşünürdüm; özümü həyatımı davam etdirməyə hazırlamaq; necə tərəqqi etmək haqqında.

Sevindirici bir hadisə baş verdi. Bir neçə ay əvvəl məhbus yoldaşlarımızdan bir neçəsini azad etdilər, jurnal üçün məqalə və xəbər yazanlardan təkcə bir nəfər qaldı və o da mən özüm idim. Mən bir jurnal yazmaq və yaymaq üçün yenidən qrup yaratmağa səy etdim.

Elə bilirəm ki, əvvəlki məktubda David Seymun barədə sənə danışmışam. O, Yəmən yəhudilərindəndir və bir müddət Qəzzə bölgəsinin hərbi məsul şəxsi olub. Üç il əvvəl Sayda bölgəsində İsrailin hərbi qüvvələrinin komandiri oldu. Amansız və daş ürəkli birisidir. O, bizim həbsxananın rəisi oldu. Onun rəis olmasından sonra bizim mədəni fəaliyyətimiz də dayandırıldı. Amma on iki nəfərin həbsxanaya gətirilməsi ilə mən burada onların rəhbəri oldum və fikrimi onların siyasi təhlillərini öz baxışlarıma yaxınlaşdırmaq səmtinə yönəltməyə səy etdim.

Ümidvar ola bilərik ki, təzə qrupun danışa bilməmək narahatlığı yoxdur. Çünki biz həmişə fikir mübadiləsi aparmaqla ən yaxşı yolları tapırıq.

1985-ci ilin yayı

# Analıq

Adı Hunduqə Vəşşah idi; təqribən altmış yaşlı, hündür boylu, arıq və əzab-əziyyət çəkmiş bir qadın.

Cəbr Vəşşahı çağıranda Səmir bildi ki, kimsə məhbus yoldaşının ziyarətinə gəlib. Cəbr üçün müvəffəqiyyət arzu etdi.

Cəbr, Qəzzə Universitetinin fizika üzrə müəllimi və Gənclər Cəbhəsinin üzvü idi. 38 yaşı olardı. Çoxdan idi ki, Səmirlə eyni həbsxanada idi. Bir neçə dəqiqə sonra həbsxananın səsucaldanı onu çağırdı. Səmir təəccüblə ətrafına baxdı, elə düşündü ki, qulağına səs gəlir. Məhbus yoldaşları onu görüş otağına getmək üçün təşviq etdilər. Səmir qadını görəndə ögey anası Səham yadına düşdü, sonra ailə üzvlərinin hamısını bir-bir yada saldı, itirdiyi bacısı Sənanı xatırladı. Qadın mehribanlıqla təbəssüm edib dedi: Oğlum, Cəbr sənin barəndə çox danışır. Səni görmək istədim. Narahat olma. Mən də sənin ananam. Heç vaxt düşünmə ki, unudulmusan. Fələstin və Livan xalqı səni yaddan çıxarmır. Elə bu andan mən sənin ananam, analığın.

Səmir Ümm Cəbrin gözlərində itmişdi.

Qadın dedi: İyirmi iki yaşım olanda bizi kiçik kəndimiz Beyt Afadan çıxardılar. Biz kəndimizi çox sevirdik. Amma onlar bizi çox amansızlıqla çıxardılar.

Nəzarətçi çəp-çəp ona baxdı.

Ümm Cəbr davam etdi: İndi hamı köçkün düşüb, düşərgələrdə sakin olub. Düşərgələrdə də çirkab iyi bir tərəfdən, yoxsulluq, xəstəlik də bir tərəfdən. Sən haqlısan, oğlum da mübarizə etməkdə haqlıdır.

Nəzarətçi bağırdı: - Səsini kəs, qoca!

Cəbr Vəşşah yerindən yarı qalxmışdı ki, anası onun əlindən tutub dedi: - Bu fürsəti əlimdən çıxartma. Qoy, sizi daha çox görüm. Daha düşərgədən heç nə demərəm.

Ümm Cəbr hər həftə sübh saat onda görüşə gəlirdi. Səmir daha bir ana tapdığını düşünürdü. Ümm Cəbr deyirdi: Bütün fələstinli analar sənin anandır.

Səmir on iki il sonra bir də həbsxananın səsucaldanından öz adının çağırıldığını eşidəndə yadına düşdü ki, bütün bu illərdə onun görüşünə gələn təkcə o qoca qadın olub və indi onun yetmiş iki yaşı var.

Sonra da Səmir üçün görüş qadağan olundu, Ümm Cəbr başqa məhbusların görüşünə gəldi və oğulluğu Səmir Qintar üçün hədiyyə, yemək, sifariş və məktub gətirirdi. Göndərdiyi sifarişlərdə həmişə bu cümləni təkrar edirdi: “Oğlum, sən mənim ürəyimdəsən, ürəyim sənin üçün döyünür.”

Səmir onu görə bilmirdi. Amma indi anası Səham əş-Şəarın üzülməsini Ümm Cəbrin üzülmüş, dərdli simasında xatırlaya biləcəkdi.

Ümm Cəbr artıq mübariz qadın, məhbusları dözümə təşviq edən bir ana kimi tanınırdı.

Artıq həbsxana Səmir üçün adiləşmişdi. Bir gün məhbus yoldaşlarından olan Kərim ona dedi:

- Sənin dua və münacat etməyini görməmişəm.

Səmir dedi:

- Mən Allaha inanıram, amma biz druzilərin əqidəsi budur ki, yetkinlik yaşı qırx yaşdır. Qırx yaşdan sonra ibadət bizə vacib olur. Siz müsəlmanlar 15 yaşına çatanda başlayırsınız Allah ilə danışmağa, biz isə kamil kişi olduqdan sonra.

Kərim “Allahu Əkbər” deyib, zikr etməyə başladı.

Səmir çarpayısının üstündən həbsxananın kitabxanasından aldığı kitabı götürüb vərəqləməyə başladı. Kitabın arasında atasının məktubunu gördü və onu bir də oxudu.

Məktubu iki il əvvəl almışdı. Onu "Sakit Don" kitabının arasına necə qoyması yadına gəlmirdi.

Atası yazmışdı ki, Kətaib Partiyası Əbyə kəndinə hücum etdi və xristianlardan başqa hamının evini yandırdılar. Səmirin yenə yadına düşdü ki, bütün uşaqlıq və yeniyetməlik yadigarları, bacısı Sənanın yadigarları hamısı odda yanıb. Atası yazmışdı ki, biz evsiz-eşiksiz qaldıq, amma kənd azad olduqdan sonra qayıtdıq və Kətaibin hücumundan qorxub evlərini tərk etmiş xristianların evində yerləşdik.

Sonrakı məktubda yazmışdı ki, ailəsini Beyruta aparmağa, qardaşı Nəsib Qintarın evində qalmağa məcbur olub...

Səmir bu xəbəri oxuduqda böyüdüyü kəndi və evini itirdiyinə görə məyus oldu. Amma altı ay sonra atasının təzə məktubu gəlib çatdı. Məktubu oxuyanda sevindi. Atası xəbər vermişdi ki, Əbyədəki evini təzədən tikib və ailəsi ilə ora qayıdıb. Ailəvi şəkillərdən birini də onun üçün göndərmişdi. Şəkilin şirin tapmacası artıq böyümüş bacı və qardaşlarını ayırd edə bilmək idi. Şəkilin böyük kədəri isə Sənanın onların arasında olmaması idi.

Sakit Don kitabını bağladı. Balışının altında başqa bir kitab da qoymuşdu. Onu dəfələrlə oxumuşdu və ondan ayrılmaq istəmirdi. "Həbsxana, həyat aynası". Kitabın müəllifi məşhur türk şairi idi; Nazim Hikmət. Səmir özünü onunla eyniləşdirirdi. Çünki o da gənc yaşlarında həbsə düşmüş və aylarla təkadamlıq kamerada qalmışdı. Amma şeirləri həbsxanadan qıraqda, camaat arasında yayılırdı və

sərhədləri aşmışdı. Pikasso, Sartr, Bertran Rassel, Lui Araqon, Pablo Neruda, Bertolt Brext və başqa çoxlu tanınmış simalar onun həbsinə etiraz etmişdilər. Nazim Hikmət 13 il həbsxanada qaldı və azadlığa çıxanda ağciyər iltihabı və ürək xəstəliyinə tutulmuşdu.

Səmir kitabı çarpayının üstünə qoydu və azadlıq röyası barədə fikirləşdi. Həbsxanadan çöldə kimlərin onun yolunu gözlədiyini, azad olmaq ümidini, hətta otuz il keçsə də, azadlığın bir gün ona təbəssüm edəcəyini düşündü.

Gərnəşib, çarpayının qırağında oturdu. Kitabı bağlayıb dərindən nəfəs aldı. Həbsxananın səsucaldanından onu çağırırdılar. Bəlkə də analığı onun görüşünə gəlmişdi; bəlkə də daha onun üçün görüş qadağasını götürmüşdülər. Addımlarını sürətləndirdi ki, tez görüş otağına çatsın. Dəmir qapıların menteşələrinin səsi zəhlətökən idi. Səmir görüş üçün ayrılmış xüsusi otağa getdi. Tanımadığı bir kişi orada Səmiri gözləyirdi.

Əvvəlcə sükut oldu. Bir az sonra Səmir cəsarətlənib soruşdu ki, Qırmızı Xaçın nümayəndəsinin onu görmək üçün həbsxanaya gəlməsinin səbəbi nədir? Bu, xoş xəbər ola bilməzdi. Çünki üzünün cizgiləri qarışmışdı və qaşqabağını tökmüşdü. Nümayəndə əvvəl ailədən söz açdı və Sənadan danışdı, onun qəfil ölümünə görə təəssüfləndiyini bildirdi. Səmirə başsağlığı verdi. Səmir soruşdu: Deməli, daha ağır xəbər eşitməliyəm, belə deyil?

Kişi başını tərpətdi. Ata ölümü idi. Sanki bütün dünya Səmirin başına çökdü. Stuldan qalxdı, amma beş güllə bədənini dəlik-deşik etdiyi vaxtda olduğu kimi dizi üstə düşdü. Ayaqları süst oldu və bu müsibətə tab gətirə bilmirdi.

Nə qədər ona dəstək olmuşdu! Onu Tunisə təhsil almaq üçün göndərməyə nə qədər çalışmışdı. Oğlunun İsrail əleyhinə fəaliyyətlərinə qarşı idi, amma Nahariya əməliyyatından sonra yaşamaq üçün ən böyük dayağı olmuşdu. Bilmirdi ki, dözə biləcək ya yox. Zamanın ötməsi çiynindəki bu ağır yükün, atasının ürək dağlayan ölümünün acısını azalda biləcəkdimi? İnanmırdı. Atasının səsini və iyini xatırlamağa səy etdi. Atasından təsəvvüründə qalan son təsvir yavaş-yavaş canlanırdı. Gözlərinin yaşı dayanmırdı. O da Səna kimi uzun müddət yatağa düşmüşdü, ağır xəstəlik yaxasından yapışıb, onu iflic etmişdi.

Səmir atasının getməsinə inanmırdı. Fikirləşirdi ki, bütün uşaqların təsəvvüründə ata ölməz bir insandır, bir qəhrəmandır, dayaqdır, bələdçidir, sərt müəllimdir, başı üzərində həmişə övladının yol yeriməsini diqqətdə saxlayan mehriban varlıqdır. Ailəsi tərəfindən sonuncu dəfə ona göndərilən məktubda bacıları atanın ağır xəstə olduğunu bildirmişdilər. Amma o, qətiyyən, atanın bu tezliklə onu və ailəni tərk edəcəyini, həmişəlik olaraq qayıdışı olmayan bir yola qədəm qoyacağını düşünmürdü.

Kitabı çarpayının üstündən götürdü. Göz yaşı aman vermirdi. Əlinin arxası ilə göz yaşlarını sildi və altından xətt çəkdiyi cümlələri oxudu:

“Nə qədər ki, insan əsirdir, həyatın onun üçün dərin mənası vardır. Heç bir şey kölə və əsir olmaq kimi həyata məna verə bilmir. Çünki o zaman insan azadlıq üçün böyük mübarizədədir. Amma heç bir şey azadlıq qədər həyatın mənasını təhlükəyə salmır. Məhz azadlıqda insan öz cazibəliyini, heyrətini və arzusunu mənaya görə itirir. Sanki azad insan məna ardınca olmayan bir insan

olmalıdır. Lakin insanlıq möhtəşəmliyi mənanı köləlikdə axtarmaq deyil, əksinə, onu azadlıqda arayıb tapmaqdır.”

Kitabı bağlayıb, cümlələr üzərində düşündü, azadlıq barədə fikirləşdi, duyğularını itiləyərək atasının onu sakit olmağa çağıran aram səsinə qulaq asmağa başladı.

# Olmuş hadisə

Tapılmayan dostum, Nail!

Artıq mənim məktublarıma cavab verəcəyinə ümidim qalmayıb. Bəlkə də əvvəldən bu məktularımı başqasına yazmalı idim. Bu cümlələr gileyli olsa da, mən səndən giley-güzar etmirəm. Ola bilsin ki, heç məktublarım sənə çatmır. Bəlkə də özüm üçün yazıram.

Bu müddət ərzində sənə çoxlu məktublar yazmışam. Amma bir həyəcanlı hadisəni yəqin ki, qəzetlərindən, ya radionun arxivindən tapa bilməzsən. Həbsxananın acınacaqlı şəraitindən sənə çox yazmışam. Biz həbsxanada keçirdiyimiz günlərin yaxşı olması üçün hər gün yeni planlar üzərində işləyirik. Bir çox şeylərdən məhrum edildiyimizə görə aclıq aksiyası və etiraz planları qurduq. Ötən bir neçə ayda aksiyamız fayda vermədi. Bir neçə məhbus yoldaşımızla birlikdə həbsxananın rəisini buradan qovmaq qərarına gəldik. Bu böyük hadisə İsrail rejiminin canına vəlvələ sala bilərdi. Edəcəyimiz işin təhlükəli olduğunu bilirdik, lakin bədəlini ödəməyə hazır idik.

İki hadisə bizim işimizi asanlaşdırdı. Birincisi bu məzmunda xəbər idi ki, Fələstin İslami Cihadın üzvlərindən ibarət bir qrup Qəzzə həbsxanasından qaçıb, həbsxana rəisinin silahını alıb və İsrailin kəşfiyyat generalı olan bu rəisi fani dünyaya göndərib.

İkinci hadisə isə Nəfxə həbsxanasında tikinti işləri idi. Həbsxananın arxasında binanın emalatxanası yerləşdiyindən gözətçi itləri yox idi.

Plan bu idi ki, üç nəfər həbsxanadan qaçsın. Cəlil Rai, Şövqi Əbu Nəzir və Kamal Əbdülnəbi. Hər otaqdan bir nəfər seçildi. Komandir olaraq kimin getməsi ilə bağlı mənimlə Cəlil Rai arasında fikir ayrılığı yarandı. Mənim fikrim bu idi ki, Cəlil Rai Nəfxə həbsxanasından Rəfəh sərhədinə qədər iyirmi yeddi kilometrlik məsafəni qaça bilməz. Çünki onda kəskin bel ağrıları var idi. Ona görə də bizim səylərimiz səmərəsiz qala bilərdi. Bir tərəfdən də Cəlil uzun müddət idi ki, həbsdə idi və nəyin bahasına olursa olsun, azadlığı əldə etmək istəyirdi. Bu üzdən geri çəkilmədi.

Həbsxananın arxa divarındakı dəmir boruları kəsməyimiz neçə gün çəkdi. Yol açıldıqdan və siyahıyaalma başlamazdan əvvəl işi bitirməli idik. Siyahıyaalma zamanı bəzən elə olurdu ki, bir ya bir neçə məhbus tualetdə olurdu. Onlar hazır olduqlarını bildirmək üçün dəmir borunu vururdular. Bu iş üçün bir neçə taxta parçası, yay və mıxdan istifadə etdik. Taxtanı bir əsadan kəsmişdik. Ona bir mıx vurub, yayı taxtanın başına bağladıq. Bunun üçün bir nəfər tualetin yanında dayanmalı və taxtaya bağladığımız ipi çəkməli idi ki, əsanın üzərindəki mıx boruya dəyib səs versin, gözətçi də məhbusun tualetdə olduğunu düşünsün.

Sentyabr ayının 21-i idi. Elə də isti olmayan bir payız günü. Onlar qaçdılar. Amma mənim dediyim kimi Xəlil Rai qaça bilməmişdi, tab gətirə bilməmişdi, yorğunluq onun yolu səhv getməsinə səbəb olmuşdu. Ona görə də gecəni Qəzzədə qalmışdılar. Əgər bütün gecəni yol getsəydilər, sabahkı gün səhər saat 11-də onların qayıb

olmasını bilənə kimi hətta Sudana çata bilərdilər. Lakin məyusluq onların ələ keçməsinə bais oldu.

Hər halda bizim bu planlarımız həbsxananın rəisinin və bir neçə köhnə işçinin işdən çıxarılması ilə nəticələndi. Həbsxana bir həftə tam "hazır ol" vəziyyətində qaldı. Hər üç məhbus həbsxanaya qaytarıldı və bizim sevincimiz bir həftədən çox çəkmədi.

David Seymonun işdən çıxarılması ilə Devid Helvi onun yerinə gəldi. O, sərt siyasətləri yumşaltmaq, həbsxana komitəsi ilə əməkdaşlıq edərək bizim problemlərimizi həll etmək məcburiyyətində idi. Bunun mənası o idi ki, bizim uğursuz qaçışımız ciddi qələbə ilə nəticələnmişdi.

Bu məktubu indi sənə göndərmirəm ki, vəziyyət bir az sakitləşsin. Çünki məktub başqalarının əlinə keçə bilər və bir çox sirlər açılar.

Həmişə dostun: Səmir

Payız 1986

# Gülən buğda tarlası və coşan bulaq

Qatlanmış kağız Səmirin ayağının yanına düşmüşdü. Ayağını onun üstünə qoydu. Çəkələyini silkələmək bəhanəsi ilə onu götürüb baxdı, sonra onu başqa bir məhbusa verdi. İki cümləlik yazının altındakı işarə qəribə bir imzaya oxşayırdı. Bir-birinin yanında və eyni sırada olan üç balıq şəkli çəkilmiş bir imza idi. Bu işarənin mənası o idi ki, yazını üçüncü şəxsə ver. Cümlələri neçə dəfə zehnində təkrar etdi: buğda tarlaları gülür, bulaqlar coşur...

Bu, iki sətirlik şeir formasında şifrəli mesaj idi. Yazını oxudular. Mesaj düşündüklərindən daha tez sahibinə çatmışdı. Səmir yumruğunu sıxıb dostu Ruhi Muştəhaya işarə etdi: Əməliyyatın ikinci mərhələsi.

Kağızın üzərinə neçə cümlə yazdı, onu qatlayıb Ruhiyə verdi. Ruhi bir papaq və bir cüt corabı qatlayıb, plastik torbaya qoydu. Kağızı Səmirə qaytardı. Alacaq şəxsin adını yazmamısan, qardaş!

Səmir qatlanmış kağızın arxasına yazdı: Əmin əl-Sane və Razi Tubasiyə çatsın.

Bağlama Əsqəlan həbsxanasına, Səmirin bir neçə günlük sürgün olunduğu yerə göndərildi. Bu iş həbsxana rəhbərləri üçün tamamilə adi və mənasız idi. Çünki Əsqəlan məhbusları digər həbsxanalardan oraya sürgün olunmuş məhbuslardan ibarət idi. Deməli, əllərinə bağlamanın çatması təəccüblü deyildi.

Səmir: - İşi bitdi.

Ruhi: - Əminəm.

Bir neçə gün sonra gözlədikləri xəbər gəldi. Eliyahu Çaçaşvili ağır yaralanıb. Səmir təbəssüm etdi; Ruhi, Səd Məsrur və başqa iki nəfərlə düyünlənmiş yumruqlarını bir-birlərinə göstərdilər. Səmir hadisələri cızdıqları planla tətbiq etdi: birinci, üç balıq imzası ilə kollektiv hərəkət; ikinci, qulaqburması; üçüncü, buğda və bulaq icrası.

Əsqəlan həbsxanasının gürcü rəisi Eliyahu Çaçaşvilinin ruhunun da xəbəri yox idi ki, Əmin və Razi papaq və corabı hücum parolu olaraq hədiyyə alıblar. Axşamüstü, tənəffüs vaxtı həbsxana rəisinə yaxınlaşdılar və güclü əlləri ilə Eliyahunu əməlli-başlı döydülər, axırda da bir neçə bıçaq zərbəsi vurdular.

İsraillilər məhbusların bir həbsxana rəisini ölümünə döydüklərini eşidəndə iki hücumçu məhbusu təkadamlıq kameraya göndərdilər, rəisi də xəstəxanaya. Bu, təkməqsədli avtobus idi ki, Eliyahu bir də həbsxanaya qayıtmayacaq.

Səmir dedi: İndi əməliyyatın üçüncü mərhələsi üçün ən yaxşı zamandır.

Gecə saat on ikidə məhbusların ümumi aksiyası başladı. Səmir dünən aldığı məktubu açdı. Hər sətrini oxuduqca üzündə dərin təbəssüm yaranırdı. Bir neçə dəfə təkrar etməyə səy etdi ki, azad olduqda baş verən hadisələri unutmasın: Hənnan, birinci bacım, ailə qurub və İordaniyaya gedib, bir neçə il sonra isə Venesuelaya köçüb... İkinci bacım Səna, mənim uşaqlıq və yeniyetməlik dövrümün dostu və munisi Allahın görüşünə gedib... Üçüncü bacım Səmira da ərə gedib və üç övladı var... Raidənin də üç uşağı var. Mən ailə ilə vidalaşanda ananın qucağında südəmər kiçik qardaşımın iki uşağı var. Bir nəfər başqası da var ki, mən heç onu görməmişəm,

bacım Ləmis. Yəqin ki, o da indi böyük qız olub. Aksiya nəfəsimizi kəsənə kimi anama bir məktub yazmalıyam...

Bir neçə gün keçdi. Nə həbsxana rəhbərləri, nə də çöldə məhbusların işlərini izləyənlər kollektiv aclıq aksiyasına əhəmiyyət vermədilər. Bu, bir qiyam idi. Hər kamerada bir başçı var idi ki, digərlərini aksiyanı davam etdirməyə təşviq edirdi. Planı idarə etmək mərkəzi komitənin vəzifəsi idi. Gizli komitə, yəni kölgədə olan bir komitə bu çətin işə rəhbərlik etməyi öhdəsinə almışdı: Səmir Qintar, Cəbr Vəşşah və Səlim Zarei.

Həbsxananın səsucaldanı hər gün xəbərdarlıq məzmunlu mesaj yayır, məhkumları aclığı davam etdirməkdən çəkindirərək deyirdi: Aclıq aksiyasının ən az zərəri, kor olmaqdır.

Amma hamı aksiyanı davam etdirməkdə israrlı idi.

Cənub həbsxanalarının rəisi Mixail Şəhhar Milli Komitənin üzvlərini çağırdı və onları konstruktiv danışıqlara dəvət etdi. Səmir və digər məhbusların tələbi həbsxananın əvvəlki vəziyyətə qaytarılması idi.

Komitənin üzvlərindən olan Səmir və Kərim Yunisi əlləri bağlı vəziyyətdə Beer Səb həbsxanasına göndərdilər və hər birini ayrı-ayrı kamerya saldılar. Bununla da hər şeyin bitdiyini düşünürdülər. Səmir on bir il iki ay idi ki, həbsxanada idi və bir çox hadisələrə öyrəşmişdi, bir çox davranışları da proqnozlaşdıra bilirdi.

Səmir bilirdi ki, aksiyanı davam etdirsə, kimsə bu etirazdan xəbər tutmayacaq. Onda aksiyanı davam etdirməyin faydası nə idi?

Əgər aksiyanı dayandırsaydı, bu xəbəri bütün həbsxanalara yayacaqdılar. Bu isə bir kollektiv hərəkətin sınması demək idi.

Bir neçə gün sonra Səmirə xəbər çatdı ki, həbsxanadan çöldə camaat bir neçə şəhərdə yürüş və aksiyalara başlayıb. Sevindi. O gün məhbuslardan biri ona dedi ki, İshaq Rabin polis naziri Moşe Şahala məhbuslarla danışmaqla bağlı tapşırıq verib.

Yenə onu çağırdılar. Həbsxananın rəisi telefon danışığında onu və Milli Komitədəki əməkdaşlarını mümkün olan ən qısa bir zamanda aksiyaya son qoymağa çağırdı. Səmir dedi: - Tələblərimizin siyahısını oxudun?

Həbsxananın rəisi tələbləri qəbul etmişdi.

Səmir başqa bir neçə tələb də irəli sürdü və müdiriyyət otağından çıxanda əlini yuxarı qaldıraraq qələbə işarəsi verdi. Həbsxananın salonunda Milli Komitənin rəislə danışıqlarının bitməsini gözləyən məhbuslar, Səmirin yuxarı qalxmış əlini gördükdə sevincdən qışqırdılar. Aclıq aksiyası bitmişdi, indi həm yemək yeyə, su içə bilərdilər, həm də istəklərinə çatacaqlarına əmin idilər. Razi və Əmin də Əsqəlanın ümumi həbsxanasına köçürüldülər və bir neçə gündən sonra Nəfxəyə qayıtdılar. İndi gələcəyə ümidli Səmir kollektiv və qrup şəklində olan işə daha çox inanırdı.

Çarpayısının yanında dayandı. Ona gəlmiş axırıncı məktubu açıb oxumağa başladı. Məktubun yuxarı tərəfindəki tarix ona xatırlatdı ki, iyirmi yeddi elul (sentyabr) 1991-dən ümumi aksiyaları başlayıb və bir neçə gün sonra böyük bir qələbə ilə bitib. Məktubun zərfinin arxasında yazdı: Biz gülən buğda tarlasından və coşan bulaqdan qurtuluşa çatdıq; görüş saatımız artdı, qidalanmağımız yaxşılaşdı, müalicə vəziyyəti qaneedici oldu, məhbuslar üçün təhsil, universitet və övladları ilə görüş haqqı ala bildik, istirahət vaxtımız bir saatdan iki saata qalxdı və digər kameralara getmək icazəsi əldə

etdik... Fikirləşdi ki, aksiya və onun üzərində möhkəm dayanmağın nailiyyətlərini yazsa, 15 maddəlik bir siyahı olacaq.

Özlüyündə düşündü ki, əgər vəziyyət normallaşsa, universitetə ad yazdıra və təhsilini davam etdirə bilər. Allahın işlərini bilmək olmaz. Bəlkə də azad olanda mənə deyəcəklər: doktor Səmir Qintar.

# Üzr istəmirəm!

Mənim dostum, əziz Nail!

Artıq qocalıram. Bu gün qocalığın ilk nişanələrini alnıma tərəf uzanan iki ağ telimdə gördüm. Səni görən vaxtda necə olacağını təsəvvürümə gətirə bilmirəm. Görəsən, səni tanıyacağam? İnanmıram tanıyam. Sən də məni görsən bəlkə yanımdan ötüb keçəcəksən, üzüm yadına gəlməyəcək. Təkcə bu yadımdadır ki, bir-birimizə yadigar şəkil verərkən sənin şəklini albomun arasına qoydum. Dərhal çap olan polaroid şəkillərdən idi. Bu şəkildə sən boş bir yerdə dayanmısan, əynində boz pencək, ayağında qırmızı çəkmə var. Şəkil bütün xırdalıqları ilə yadımdadır. Amma səni otuz iki yaşlı bir kişi formasında təsəvvür edə bilmirəm. Mütləq, indiyədək ailə qurmusan, övlad sahibi olmusan və çoxlu həyat təcrübəsi qazanmısan.

Mənim də sənin kimi otuz iki yaşım var. Məlumdur ki, həbsxana insanları dondurmur. Hətta onları tez qocalda bilər. Amma eşitmişəm ki, bəzi qurğular dalğa ilə işləyir və bir dəqiqədə suyu qaynadır. Həbsxana bəziləri üçün o qurğu kimidir.

Mən özümü həbsxana şəraitinə uyğunlaşdırmağa səy etdim. Ona görə də universitetə ad yazdırmışam. Təhsil

xərcim də ödnəlidi. Amma israillilər mənə mane olmağa çalışırlar.

O gün tənəffüs vaxtı Cəbri gördüm. Cəbr Vəşşahı deyirəm, hər həftə anası yanına gələn. Şikayət etməli olduğumu dedi.

Saleh Məhamiyyə adlı vəkilə məktub yazdım. O, bununla bağlı məhkəməyə şikayət etməli olduğumu məsləhət gördü. Mən də şikayət ərizəsi yazıb məhkəməyə göndərdim. Bu, 15 ildən sonra ilk dəfə idi ki, məhkəməyə gedirdim və həbsxanadan eşiyə çıxırdım. Məyus, yorğun və çarəsiz idim. Amma bunun səbəbi təhsilim qarşısında maneə yaradılması deyildi, Oslo sazişinin imzalanmasına görə idi. Özləri ölçüb-biçmişdilər. Fəthin üzvləri olan fələstinlilər İsraillə razılaşmışdılar. Şəhər adi bir şəhər idi, elə bil, bu torpaqlar işğal olunmayıb. Qorxu məni bürüdü ki, olmaya, ömrüm boyu səhv etmiş olam.

Dosyemin hakimi Umeyr Repoport idi. Belçikalı idi, Fələstində hakimliklə məşğul olan avropalı yəhudi. O da Oslo sazişini qəbul etmişdi. Ona görə də mənimlə mülayim davranmağa çalışırdı. Məni yaxşı tanıdığı bəlli idi.

Mənim şikayətimdən söz açmamış dedi:

- Hal-hazırda sülh hər yeri bürüyüb. Tezliklə, bütün əsirlər, o cümlədən siz cənab Səmir Qintar azad olacaqsız. Ancaq bu düşmənçilikdən əl çəkməlisiz. Məncə, yaxşı olar ki, mənim dediyimi edəsiz.

Bir az fikrə getdikdən sonra dedi:

- Ərizə yazın və öldürülənlərin ailəsindən üzr istəyin.

Dedim:

- Mən üzr istəmirəm. Mən hətta Oslo sazişi məsələsində Fəth Hərəkatından da heç bir tələb ya xahiş etmədim. Mən xalqımın azadlığı, hələ də işğal altında olan

torpaqlarımızın azad olması uğrunda döyüşmüşəm. Azad olmağım üçün üzrxahlıq etmirəm. Mənim xahişim təkcə təhsilimi davam etdirməkdir...

Hakim təbəssüm edib dedi ki, mən qəzəbliyəm və düzgün düşünə bilmirəm. Ona görə də dərindən nəfəs almağımı istədi. Amma mən onun sözünə qulaq asmadım. Dərhal qarşıma kağız-qələm qoyub dedi: Cənab Qintar siz onsuz da axırda üzr istəməli olacaqsız. İndi sülh və barışıq olduğu bir vaxtda sizin üçün nə isə etmək olar. Bu, ən yaxşı fürsətdir, onu əldən verməyin. Ola bilsin ki, İsrail hökuməti qəbul etdi.

Ürəyimdə onun sözünə güldüm. İndiyə kimi hansı sözlərinin üstündə dayanmışdılar ki, bu ikincisi olsun?

Ömürlük həbs, zülmkarlıqla məni özündə qərq etmişdi. Azadlığa ümidvar ola bilmirdim, sözlərinə də arxalanmaq olmazdı.

Dedim: - Mən peşman deyiləm. Şərafətlə İsrail əleyhinə əməliyyata girdim, şərəf və izzətimi qorumaqla da azad olmalıyam. Yadınızda olsun, mənim azad olmağımı görəsiniz ki, başımı dik tutmuşam və tam iftixarla vətənimə qayıdıram.

Hakim məyus halda vizit kartını mənə verib dedi ki, üzrxahlıq etmək barədə hər vaxt bir nəticəyə çatsan, həbsxananın rəisindən mənimlə danışmaq üçün icazə al. Sonra təhsilimi davam etdirmək haqqındakı kağızı imzaladı və möhür vurdu. O, təhsilimi davam etdirməyimi qəbul etmişdi. Necəliyi önəmli deyil, önəmli olan odur ki, məndə ümid hələ də yaşayacaqdı.

Məktubun sonunda səndən istəyirəm ki, özün barədə yazasan; universitetdə nə oxumusan? Haradasan, nə işlə məşğulsan? Sanki mənim yeniyetməlik dövrümün dostu ilə əlaqəm birtərəfli əlaqədir.

Doğrusu, gülməli bir söz deyim, məktubun ab-havası dəyişsin:

Mən 1990-cı ildə, yəni 4 il əvvəl görüşdən məhrum edilmişdim. Hətta, Ümm Cəbri də məni görməyə buraxmırdılar. Təkcə bəzi vaxtlar mənim qəribliyimi bilən məhbus ailələri görüş salonunun şüşəsi arxasından əl yelləyirdilər. Həbsxananın həyətində tənəffüsdə olduğum vaxt məhbus yoldaşım Məhəmməd Nasiri mənə yaxınlaşdı, Yediot Ahronot qəzetini mənə verdi. Təəccüblə baxdım. Dedi ki, bunu oxu, sənin barəndə yazıblar. Bu o qəzet idi ki, Ehud Olmertə demişdi: "Olmert qaç!" Qəzeti açdım. İnanılası deyildi. Mənim şəklimi dərc edib altında yazmışdılar: "Səmir Qintar həbsxanada ailə qurdu." Xeyli güldüm. Çox yaxşıdır, gecə yatasan, səhər oyanıb görəsən ailəlisən. Xəbər zarafata çevrilib, ağızdan-ağıza gəzdi. Yenə də kağız-qələm götürüb yalan şaiyə yaydığı üçün o qəzetdən şikayət etdim. Amma hələ şikayətimə cavab verilməyib. Bu şaiyə camaatın həbsxanada əqd otağının və izdivac salonunu olduğunu fikirləşməsinə bais oldu. Bu şaiyəyə görə mənimlə Hizbullah arasında münasibətimiz soyudu.

Şad və başıuca olasan.

Sənin dostun: Səmir Qintar

# Son məktub

Mən Yakub Elon və əməkdaşım Miki Himuviç bir xəbər reportajı ilə evlərinizin qonağı olacağıq.

Ərdinc paşanın qəhvəxanası insanlarla dolu idi. Hamı televizorun qarşısında dayanmış, ya taxta oturacaqların üstündə oturmuşdu.

Səmir Qintarın şəkli İsrail televiziyasının ikinci kanalının ekranında aparıcıların arxa tərəfində göründükdə, Ərdinc paşa eynəyini işarə barmağı ilə üzünə yapışdırıb, başını tərpətdi. Özünü etinasız göstərdi. Alt dodağını iki barmağı ilə tutmuş kişiyə baxdı, sonra onun çiyninə vurub dedi: Qurtarır.

Kişi başını tərpədib televizorda deyilənləri daha yaxşı dinləyə bilmək üçün sükut etməyə üstünlük verdi.

Miki Himuviç qızılı saçları olan bir qadın idi və yavaş-yavaş danışırdı. 45 yaşı olardı. O, əməkdaşına üz tutub dedi:

- Yakub, mənə elə gəlir ki, Səmir Qintarın azad olması yeni bir böhranın yaranmasına səbəb olacaq. Belə deyilmi?

Yakub Elon dedi:

- Demək olar. Bizim vətəndaşlarımızdan çoxu hökumətdən tələb ediblər ki, Səmiri azad etsin, beləliklə, israilli əsirlər də azad olsun. Amma onu öldürəcəklərinə söz veriblər. Mən hazırkı vəziyyəti müzakirə etmək istərdim.

Miki: - Komitə yaradılıb ki, son danışıqlar üçün Hadarim həbsxanasına getsinlər və Səmir Qintarla danışsınlar. Bu komitədə məclisin daxili işləri üzrə bir neçə nəfər məsul şəxs, bu komitənin rəhbəri Ofer Bens və

məhbuslara dəstək qruplarından bir neçə nəfər iştirak edir. Bu axşamkı qonağımız Ofer Bensdir. Axşamınız xeyir, Ofer! Tamaşaçılarımız soruşur ki, siz nə üçün Mərvan Mərğuş və Səmir Qintarla əl görüşmüsünüz, halbuki, onların əli israillilərin qanına bulaşıb?

Ofer Bens təəccüblənmişdi. Alnını qaşıyıb dedi: - Yakub, bu təbii bir davranışdır. Mən Mərvana salam verdim və ona əl uzatdım. Amma Səmir Qintara yox!

Miki: - Səmir Qintar əlini sənə tərəf uzatdımı?

Ofer: - Məncə, o, bilərəkdən əlini cibinə qoymuşdu ki, bizimlə əl görüşməsin.

Yakub: - Görünür, azad olacağına çox əmindir! Mütləq azad olacağını iddia edib. Bilirsiniz, haradan bu qədər əmindir?

Ərdinc dirsəyini stulda oturmuş kişiyə vurdu: Demək istəyir ki, xəbərlər çox asanlıqla məhbuslara çatır.

Ofer dedi: - Hər halda siz media əməkdaşlarının səsi hətta ən qaranlıq yerlərə, o cümlədən həbsxanaya çatır.

Cənab baş nazir digər bir müharibənin qarşısını almaq üçün bu iki məhbusun israilli məhbuslarla dəyişdirilməsinin imzalanmasına göstəriş verdi ki, bu məsələ həm Hizbullah, həm də bizim üçün bitsin. Mənə elə gəlir ki, ağıllı qərardır.

Miki soruşdu: - Bu azadlıq, 1985-ci ildən sadiq qaldığımız əsir dəyişmə əməliyyatı ilə bağlı qədim qanunu pozmaq sayılır. Məqsədim, israillilləri öldürən şəxslərin əbədi olaraq əsir saxlanma qanunudur.

Ofer yenə alnını qaşıdı və ara verib dedi: - Bu qanun pozuntusu, sonralar bizim üçün faydalı olacaq.

Ərdinc paşa soruşdu: - Doğrusu, nə vaxt azad olacaq?

Kişi dedi: - 15 ya 16 temmuz.[1]

Səmir Qintarın təbəssümlü şəkli televizorun ekranında göründü. Qəhvəxanada olanların səs-küyü ucaldı.

Kişi özlüyündə düşündü ki, onların qəhrəmanlıq damarını Səmir Qintar coşdurub.

Ərdinc paşa dedi: - Yenə bizim yanımıza gəl.

Kişi çantasını masanın üzərindən götürdü və əl yelləyib getdi. Hələ çox uzaqlaşmamışdı ki, Ərdinc paşa onu çağırdı:

- Nail xan, elə bilirəm bu sonuncusu olacaq.

Məktub zərfini ona verdi. Nail zərfi iki barmağı arasında çevirdi. Məktub çatacaq şəxs xəttində öz adını gördü: Çatsın, cənab Nail Litaniyə.

Nail masasının arxasında oturdu və məktubu açdı.

Sanki sonuncu məktubun məzmunu fərqli idi, daha çox vəsiyyətnaməyə oxşayırdı:

Fələstin torpağı indiki zaman kəsimində çox əzab-əziyyət çəkib və tərəqqi etmək əvəzinə saysız münaqişələrə qərq olub. Heç bir şey fələstinli mübarizlər ilə torpaqları arasında uzaqlıq yarada bilməz və israillilər bundan qorxmalıdır. Nə daxili müstəqillik maddələri, nə Sadatın sazişə getməsi, nə İsrail üçün təhlükəsizlik zonasının yaradılması, nə də Amerika imperatorluğunun bütün avadanlıqları mübarizlər ilə Fələstin torpağı arasında uçurum yaratmağa qadir deyil.

Bu zaman ötəcək və bir daha qayıtmayacaq. Lakin əmin olun ki, mübarizlər tezliklə öz qanımızla açdığımız bu yolumuzu davam etdirib, onu azadlığa qovuşduracaqlar.

---

[1]. İyul.

Fələstinin hər yerində sülh hakim olacaq vaxt, mübarizlərin silahı səni Fələstinə çatdıracaq.

# “Səmir Qintar”

Nail məktubu masanın üzərinə qoydu. Sonra kitabxananın arxasında gizlətdiyi seyfə tərəf getdi. Kitabları bir-bir götürüb yerə qoydu. Seyfi açıb Səmirin məktublarını çıxartdı. İnanılası deyildi, bu otuz ildə Səmirdən yüzə yaxın məktub almışdı və heç birinə də cavab yazmamışdı. Özündən soruşdu: Səmir hansı əminliklə mənim üçün bu qədər məktub göndərib?

Yadına saldı ki, Səmirdən aldığı ilk zərfdə ondan çox məktub yerləşmişdi. Hər biri də müxtəlif tarixlər ilə. Özlüyündə düşündü: Əgər bu məktubların birini qəbul etməsəydim, onda məktub geri qayıdacaqdı və Səmir daha məyus olacaqdı, mənə məktub yazmayacaqdı. Amma bu işi edə bilməzdim. Çünki bizim aramızda bir vasitəçi var idi. Ərdinc paşa. O, bizim nə qədər yaxın olduğumuzu görmüşdü.

Ağ kağız üzərinə yazdı:

“Səmir qorxmaz idi, mən isə mühafizəkar. Mən uzaqdan oda əl vurmaq istəyirdim, Səmir isə odun özü idi. Mən silahlı mübarizəyə qarşı idim, o isə İsrailə qarşı nifrətin özü idi, hətta yalın əl ilə də neçə israillini diz çökdürə bilərdi.

Biz indi 45 yaşlı kişilərik ki, iki fərqli yolumuz vardır. Mən yazıçı olmuşam, Səmir isə məşhur bir mübariz. Bir neçə gündən sonra jurnalistlər, fotoqraflar yenə onun ətrafını bürüyəcək. Etiraf edirəm, ilk dəfə onun şəklini qəzetdə görəndə qorxdum. Qəribə hadisədən qorxmaq üzündən yaranmış bir dəhşət məni bürüdü. Hər vaxt iki

qəzəbli və qorxmuş israillinin onun qoluna girməsini xatırlayanda bədənimə titrətmə düşür. Qaşları bir-birinə toxunmuşdu, gözləri nifrətlə dolu idi. Ağ köynəyinin hər yeri qan idi. Bədəninin neçə yerinə güllə dəydiyi bəlli idi, lakin ayaq üstə qalmağa çalışırdı ki, diz çökməyəcəyini göstərsin.

Səmir qəzəbli bir mübariz, qətiyyətli bir döyüşçüdür. Onun yerinə olmağı arzu etmirəm. Çünki insanların bir-biri ilə fərqli olduğunu bilirəm.

Bilmirəm, bu kitab tamamlananda onun adını nə qoymalıyam."

Hər iki əlinin içi ilə üzünü örtdü. Divardan asılan saata baxdı. Özünə söz vermişdi ki, kitabın son sətrlərini o gecə yazsın və gecə yarıya çatmamış onu bitirsin.

Avtoqələmi mürəkkəblə doldurdu. Yadına saldı ki, cəlali təqvimi ilə düz baharın üçüncü ayının birinci günü "Sakit Don" kitabından sitat gətirmək istəyəndə Səmirin məktublarından birini kitabın arasında gördü və o gecədən yazmağa başladı. Dramatik bir hekayə ola bilərdi. Fikirləşdi ki, Səmir otuz il həbsdə olub və o, bu otuz ili otuz gündə yaza bilib. Sonra özündən soruşdu: Necə ola bilər ki, bir həyatı belə bir az müddətdə yazasan, sonra da onu üç gündən az vaxtda oxuyasan? Təbii ki, ömrün hər anı xüsusi və cazibəli ola bilməz. Bəlkə də bizim bir ömür həyatımız bir kitab qədər cazibəli ola bilər.

Yeniyetməlik xatirələrini xatırlaya bilərdi. Amma o yalnız qısa bir müddət Səmirlə dost olmuşdu. Çünki Səmir həbs olunduqdan sonra dostluq əlaqələri azalmışdı. Amma Səmirin evin anbarında köhnə taxta sandıqçada toz içində qalmış məktubları Nail Litaninin masasının üzərinə qayıtdı. Bu məktublar həyəcanlı bir hekayənin əsas mənbəsi ola bilərdi. Ona görə də məktubları bir-bir

yazıldığı tarixə uyğun olaraq masasının üzərinə düzdü və hər gecə onların ikisini açıb oxudu.

İndi isə Ərdinc paşadan aldığı məkub, onun nəzərində sonuncu məktub idi. Bir neçə dəqiqə sonra hekayəsinin bitməsinə görə məyus oldu. Çünki hələ Səmir azad olmamışdı. Gərək əsir dəyişdirilməsi həyata keçənə qədər gözləyəydi.

Avtoqələmi masanın üzərinə qoydu, əllərini bir-birinə düyünləyib, fikrini toplamağa çalışdı ki, bəlkə son anları şairanə bir ilham kimi şüuraltı ağlında axtara bildi. Hekayəsini beləcə tamamlaya bilərdi və onu çap etdirməyə tələsmədiyi üçün əsir dəyişdirilməsi baş tutduqdan sonra reallığı xəyal ilə uyğunlaşdıra bilərdi. Bəlkə bu, bir mübarizənin ən yaxşı təsviri idi; amma təsəvvür və reallıq, xəyal dünyasının tez yoxa çıxan düşüncələri və reallığın ağır qabarıq rolu arasındakı dostcasına bir mübarizə. Avtoqələmini götürdü və yazdı. Bu, edə biləcəyi ən yaxşı iş idi.

# Dəniz

Həbsxananın rəisi Səmirə dedi: - Yoldaşlarınla vidalaşmaq istəyirsənsə, elə indi başla, çünki səni çağırdıqda vaxtın olmayacaq.

Səmir bütün məhbuslarla vidalaşdı. Onlar ağlayırdılar.

Çərşənbə axşamı səhər vaxtı həbsxana zabiti Səmiri çağırdı. Səmir dedi: Qəhvə içib gəlirəm.

Tələsirdilər. Səmir qəhvəni içib yola düşdü. Zabitlərin otağına girdi. Arxasınca qapını bağladılar.

Səmir dedi: - Gedib çantamı götürməliyəm.

Birinci zabit dedi: - Qırmızı Xaç gətirəcək, nigaran qalma.

Onu başqa otağa apardılar. Orada daha dörd məhbus var idi. Cavan qız və oğlan ona yaxınlaşıb soruşdular:

- Livana getmək üçün bir problemin yoxdurmu?

Səmir: - Otuz ildir vətənimin torpağını görməyin intizarını çəkirəm. Aydındır ki, bir problemim yoxdur.

Qız dedi: - Biz soruşmalıyıq. Bu, Qırmızı Xaçın qanunudur.

Yavaş-yavaş qaranlıq çökdü. Səmir üçün təzə paltar gətirdilər və onu geyinməsini istədilər. Səmir dedi: - Zarafat edirsiz? Bunlar çox yüngüldür geyinə bilərəm. Yeniyetmə olsaydım, ayrı məsələ. İndi 47 yaşım var.

Televiziya Səmirin azadlıq xəbərini elan etdi. Diktor xəbəri təkmilləşdirmək üçün əlavə etdi: Nahariya qurbanlarının ailələri məhkəmədən işə yenidən baxmasını tələb etsələr də, məhkəmə bu tələbi qəbul etmədi.

Bir əsgər Səmir və digər məhbusların başı üstə dayanmışdı. Dedi: Tez yatın, sabah müəmmalı bir gün olacaq.

Saat birdə onları yuxudan oyatdılar və bu geyimləri geyinmələrini tələb etdilər. Səmir və digər məhbuslar, hətta əsir mübadiləsinin ləğvi ilə nəticələnsə də, onları geyməyəcəklərini dedilər.

Bölgə rəisi dedi: - İnadkarlıqdan əl çəkin. Onları yalnız sərhədə qədər geyinin.

Səmir dedi: - Bu geyimlər bizim üçün bir növ təhqirdir. Mən otuz il idi ki, həbsdə idim və indi də yenə həbsə qayıtmalı olsam, bunları geyməyəcəyəm.

Yarım saat sonra rəis gəlib dedi: - Necə istəyirsiniz, gedin, təkcə gedin.

Bir neçə dəqiqə sonra jurnalistlər və fotoqraflar beş məhbusun ətrafına toplamışdılar. Fotoaparat flaşlarının işığı qaranlıq gecəni işıqlandırdı.

Sonra əllərinə və ayaqlarına qandal vurdular.

Səmiri bir maşınla, digər dörd məhbusu isə ayrı maşınla Rəs əl-Naqurəyə apardılar.

Maşının kiçik pəncərəsindən çölə baxdı. Kükrəyən dənizi gördü. Əbdülməcid, Muhənna və Əhməd ilə tufanlı dənizin dalğaları üzərinə qalxdıqları gecəni xatırladı.

Muhənna və Macidə görə kədərləndi.

Rəs əl-Naqurəyə çatdılar. Dənizdən əsən nəsim külək burnuna dəydi. Yuxu gözlərini ağırlaşdırdı. Bir az sonra qarşısında israilli əsgərin silahını gördü. Əsgərin onun üzünə vurduğu zərbənin ağrısını hiss etdi.

Səmir ona baxıb dedi: Ya cəsarətli ol atəş aç, ya da itil get.

Əsgər oradan uzaqlaşdı. Bir neçə dəqiqə sonra maşının qapısı açıldı və general rütbəsi olan birisi onun qarşısında peyda oldu.

Səmir gülümsünüb təzədən gözlərini yumdu. Günortadan sonra saat üç ya dörd olardı ki, müqavimətin himni ilə yuxudan oyandı. Əsgərlər onu və digər dörd məhbusu sərhədə tərəf apardılar. Qırmızı Xaça aid bir maşın bir neçə metr aralıda dayanıb onları gözləyirdi. Əllərini və ayaqlarını açdılar. Ondan maşına tərəf getməsini istədilər. Səmir üzərində qırmızı rəngli 1+ işarəsi olan furqonu gördü. Maşına oturanda soruşdu:

- Bura haradır?

Sürücü dedi: - Livan.

Bir nəfər onun yanında oturdu və təbəssüm edib özünü təqdim etdi: - Mən Vəfiq Səfayam, Hizbullahın əlaqələr üzrə komitəsinin məsul şəxsi və sizin dosyenizin məsulu. Seyid Həsən Nəsrullah tapşırıb ki, jurnalistlərin qarşısında şiə olduğunuzu deməyəsiz.

Səmir özlüyündə düşündü: Bu, tamamilə şəxsi bir məsələdir və heç kimə dəxli yoxdur. Dedi:

- Bilirəm. Həbsxanada da bu məsələyə diqqət edirdim.

Onu qarşılamaq üçün xeyli adam gəlmişdi. Belə bir qarşılama mərasiminin təşkil olunacağını əslə təsəvvür etmirdi. Helikopterlə Beyruta tərəf getdilər; Səmirin uşaqlıq illərində kəndin təpələrindən ona tamaşa etdiyi bir şəhərə tərəf.

Burada onu qarşılamağa gəlmiş cəmiyyət sərhədə gələnlərdən daha çox idi. Livanın prezidenti hava limanında çıxış etdi. Parlamentin sədri Nəbih Berri, baş nazir Fuad Siniora və digər bir neçə nəfər də orada idi. Səmir orada dayanmış qadınlardan birinə baxdı; tanış gəlirdi, amma çox dəyişmişdi. Yanında dayanmış şəxsə dedi: Əgər qadınlar Livanda bu formaya düşübsə, yaxşı olar ki, mən həbsxanaya qayıdam.

Hava limanının mərasim otağında gülüş səsi yayıldı. İnsanların görüş və qucaqlaşması fotoqrafların sujetinə çevrilmişdi.

Sanki Səmirin nəfəsi sinəsində donub qalmışdı. Otuz ildən sonra özünü ailəsi ilə görüşməyə hazırlayırdı. Otuz yaşlı bir kişi ona tərəf gəldi və onu möhkəm qucaqladı.

Səmir onun üzünə baxdı. Allahım! Bu, Bəssam, mənim öz balaca qardaşımdı. Mən gedəndə üç-dörd aylıq olan qardaşım.

İndi növbə anaya çatmışdı. Qocalmış və sınıxmışdı. Bu da, bacıları idi, amma Səna onların arasında yox idi. Bu da, atasız ora gələn qardaşları idi.

İnanmırdı. Ailə üzvləri də inanmırdı. Qızarmış yanaqlarına gözlərindən yaş süzülürdü.

Hava limanından şəhərin mərkəzinə kimi bir qrup Səmiri qarşılamağa gəlmişdi. Vəfiq Səfa dedi: Çıxış

etməyin nəzərdə tutulub. Səhnə üzərində hasar var, həbsxana barmaqlıqlarına bənzəyir. Sən onları qırmalısan.

Səmir qarşısındakı oturacaqlarda oturmuş insanlara baxdı. Allahı yada salıb azadlıq nemətinə görə şükür etdi. Bir nəfərin sözü yadına düşdü. O, demişdi: “Allah, sizi azad edə biləcək bir kəsi yaratmayıb.” Özlüyündə dedi: Haradadır, görsün indi mən azad olmuşam?! Mən israillilərə dedim: Mən getmirəm ki, bir daha Fələstinə qayıtmayım; gedirəm ki, qalibcəsinə Fələstin torpağına qayıdam. Mən söz demək üçün gəlməmişəm, əməl etmək üçün gəlmişəm.

Camaat ayağa qalxıb onu alqışladı. Seyid Həsən Nəsrullah şad idi; Emil Ləhud və digərləri də.

Səmir dərin bir ah çəkdi. Azadlığın dadını ciyərlərinə çəkdiyi havadan hiss etdi. Artıq tək deyildi. İndi ailəsi onun yanında idi. İndi yeni mərhələni təcrübə edirdi.

Uzaqdakı yüksəkliklər, yaşıl Əbyə kəndinin tikildiyi bir təpə idi. Əbyə atasının və bacısı Sənanın ətrini ona duydururdu. Uşaqlıqda getdiyi qayanın yanına getdi, uzaqlara baxdı. Günəş uzaq sahildə qürub edirdi. Narıncı və qırmızı səma, günəşin izi uzaqdakı dəniz üzərində sürünürdü. Dənizi günəşə, sonra da səmaya qovuşduran bir nərdivann kimi.

Nail Litani, 15 haziran (iyun), 2008

# Şəhid Səmir Qintarın həyatı

Səmir Qintar 20 iyul 1962-ci ildə Cəbəl Livan vilayətinin Əbyə kəndində on nəfərlik bir ailədə dünyaya gəldi. Atası Beyrut limanında işləyirdi. Bir müddət sonra daha çox gəlir əldə etmək üçün Fars körfəzi ölkələrindən birinə getdi və mühəndislik şirkətlərinin birində işləməyə başladı. Daha sonra ticarət gəmilərindən biri ilə Şotlandiyaya getdi.

Səmir ailə ilə birlikdə Əbyə kəndində yaşayırdı. Bu kənddə druzilər məskunlaşmışdı. Druzilər müsəlman məzhəblərindən birinin ardıcıllarıdır və onlar insanın qırx yaşında yetkinliyə çatdığına inanırlar. Lakin Səmir çox tez fikri və etiqadi yetkinliyə çatdı. Onun anası İqbal Bəlut, Səmir hələ uşaq ikən dünyasını dəyişdi və atası başqa qadınla ailə qurdu.

Səmir yeniyetməlik illərinin əvvəlində Fələstin və Livana aid hərəkatlarla tanış oldu və müqavimət qüvvələrinə qoşuldu. O, altı-yeddi yaşında ikən İsrailin bombardman və hava hücumlarını gördüyü üçün müqavimət qruplarına qoşulmaqda qətiyyətli idi. Bu yolda Vədi Həmzə adlı müəlliminin təlimləri onu israillilərə daha çox nifrət etməyə sövq etdi.

1973-cü ildə Ərğub bölgəsində İsrailin Livan ordusuna qarşı müharibəsi başladı. Bundan iki il sonra Səmirin on iki yaşı olarkən, Livanda daxili müharibələr ölkəni tamamilə bürümüşdü.

Livanda vətəndaş müharibəsi bütün tayfaları puç və faydasız bir mübarizəyə çəkmişdi. İsrail Livanın intellektual və dini qrupları bir-birinin canına salmaqla öz

məqsədinə çatmış və ölkəni iki, bəlkə də bir neçə yerə parçalaya bilmişdi.

Səmir 1976-cı ildə on dörd yaşında ikən Xalq Cəbhəsinə qoşuldu və bir neçə düşərgədə çətin hərbi təlimlər gördü. O, şövqlə təlimləri bitirdi və bir il sonra Tələt Yaqubun qüvvələrinə qatıldı. Atası onun silahlı döyüşə qoşulmasının sərt əleyhinə idi. Amma Səmir qərarını vermişdi. Qısa bir müddət ərzində ikinci mərhələyə girmiş və komandanlıq kursunu bitirə bilmişdi. İndi o, yeniyetmə bir komandir idi və ilk əməliyyatını İordaniyadan İsrail ərazisinə girməklə həyata keçirdi. Bu əməliyyatda Səmir saxlanıldı və Ərbət sərhədindəki həbsxanaya göndərildi. Sonra onu məkrəzi kəşfiyyat, daha sonra isə Məhat həbsxanasına apardılar. O, burada dörd ay həbsdə qaldı və bu, onun müqavimət qruplarının bir neçə komandiri ilə tanış olması üçün ən yaxşı fürsət oldu. On bir aydan sonra Səmir azad olundu və İsrailə qarşı daha nifrətlə və daha həvəslə döyüşə başladı.

O, Beyrutda və Takhani bölgəsində Xalq Cəbhəsinin hərbi komandiri Əbul-Abbas ilə tanış oldu və İsrail ərazisinə girmək üçün digər əməliyyata başladı.

Səmir, başqa üç nəfərlə birlikdə kiçik bir qayığa mindi və Nahariya sahilinə yola düşdü. Orada silahlı bir əməliyyatda bir neçə israillini öldürdülər. Öldürülənlərdən biri də tanınmış israilli fiziki idi. Bu arada Dani Haranın dörd yaşlı uşağı da öldürüldü və Səmirin komandirliyini qəbul etmiş silahdaşlarından iki nəfəri şəhid oldu.

Səmir ələ keçdi. Nahariya əməliyyatı sürətlə 1979-cu ilin mühüm xəbərlərindən birinə çevrildi. Ağır işgəncələr verdikdən sonra onu məhkəməyə apardılar. Lakin o, heç vaxt dörd yaşlı qız uşağının qətlini qəbul etmədi və dedi ki, Dani Haran öz qızından sipər kimi istifadə etdi və dörd

yaşlı uşaq atışma zamanı israilli əsgərlərin gülləsi ilə öldürülüb.

Səmir Qintar İsrail həbsxanalarında olan ən qədim livanlı məhbus idi. Otuz ildən sonra 2008-ci ildə müqavimət qruplarının, xüsusilə də Hizbullah Hərəkatının səyləri nəticəsində iki israilli meyitlə dəyişdirildi və azad oldu.

O, 20 dekabr 2015-ci ildə 53 yaşında ikən İsrailin raket hücumu nəticəsində Dəməşq yaxınlığındakı Caramana qəsəbəsində öz əbədi arzusu olan şəhidliyə qovuşdu.

# Mündəricat


İqbal....2
Nar bulağı (Eynur-Rummanə)....5
Punçu sahili....9
Cənubdan məktub....14
Ərbət həbsxanası....16
Natamam məzuniyyət....20
Nahariya....23
Sümüyünün iliyinə qədər işləyən ağrı....30
Qırmızısaqqal....34
Təlatümlü çay....39
Duel....42
On ikinci məktub....47
Edamı gözləyin....50
Edam....51
Bağlanmış qovluq....56
Qəzet....57
Əbyədən məktub....60
Əbədiyyət və ümid....62
Achille Lauro....65
Bir dost üçün yeni bir fikir....68
Analıq....71
Olmuş hadisə....76
Gülən buğda tarlası və coşan bulaq....79
Üzr istəmirəm!....83
Son məktub....87
"Səmir Qintar"....90
Dəniz....92
Şəhid Səmir Qintarın həyatı....97